# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 111 (6311) 25 iyun 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident İlham Əliyev "Gülüstan" sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub



Bax 2

## USAİD korrupsiya ilə mübarizəni, korrupsiyanı təşviq etməklə aparırmış!

"Korrupsiya ABŞ-ın milli təhlükəsizliyi və ümumilikdə demokratiya üçün təhlükə yaradır, korrupsiya ilə mübarizə bizim hökumətin əsas prioriteti olacaq". Bu sözləri Co Bayden saxta...




Bax 7

## Məhərrəm Əliyev: "Azərbaycan Ordusu bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq"



"Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrimizin şəxsi heyətini təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulayıram. Doğma Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, qazilərimizə şəfa diləyirəm". Bu fikirləri SİA-ya...

Bax 5

## Sosial şəbəkələrdə pis vərdişlərdə meyillilik nədən qaynaqlanır?



Bax 13

"Aqressiyanın artması, insanların biri-birini həzm edə bilməməsi, yola getməməsi tək sosial şəbəkənin problemi deyil. Bunlar həm ailə daxili, həm ətraf mühitdə, həm iş həyatında, həm də dostluqda olur. Ailədə baş verən aqressiya bizimlə...



Bax 4

## "Hraparak": Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq sazişə imza atacaq!

Ermənistan tərəfi silahlı birləşmələrini geri çəkməyə hazırlaşır, Azərbaycanla danışıqlar aparılır. SİA xəbər verir ki, bu barədə erməni KİV-ləri Ermənistan respublikası silahlı...

## Ölümə aparan içkilər hansılardır?



Bax 16

## Xocavənddə yollara basdırılmış minalar aşkar edilib



## "Ermənistan nüfuz qazanmaq istəyirsə,..."

"Düşünürəm ki, Ermənistan prezidenti Nikol Paşinyanın rəsmi qələbəsi elan olunduqdan sonra ilk növbədə...



Bax 11

## Fransa hökumətinin erməni "canıyananlığı"...



Erməni etirafına görə, son zamanlar bədbəxtçilik nəinki təkcə Ermənistanı, həm də...

Bax 14

## Koronavirusa qarşı mübarizədə vaksinasiya qaçılmaz zərurətdir



Bax 9

## "İşğaldan azad edilmiş bütün ərazilərdə keyfiyyətli su təminatı olacaq"



## Belçika telekanalının saytında işğaldan azad olunmuş Ağdam haqqında reportaj yayımlanıb



Bax 8

## "Həqiqətlərin düzgün və şəffaf çatdırılması üçün jurnalistlərə təhlükəsiz şərait yaradılmalıdır"



Bax 6

## UEFA səfər qolu qaydasını ləğv etdi!



Bax 16

# Prezident İlham Əliyev "Gülüstan" sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub



***Bakıdakı əzəmətli "Gülüstan" sarayı yüksək səviyyədə və özünəməxsus memarlıq üslubu saxlanılmaqla yenidən qurulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Gülüstan" sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.***

"Gülüstan" sarayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1979-1980-ci illərdə inşa edilib. Ulu Öndər bu sarayın tikintisinin gedişini şəxsən daim nəzarətdə saxlayıb, inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı mütəmadi olaraq tövsiyə və tapşırıqlarını verib. "Gülüstan" sarayı yalnız keçmiş Sovet İttifaqında deyil, daha geniş məkanda ən müasir və özünəməxsus gözəl arxitektura nümunələrindən biri hesab olunurdu. Bakının memarlıq ansamblını daha da gözəlləşdirən bu sarayın inşası o zaman Ulu Öndərin paytaxtımızın inkişafı ilə bağlı həyata keçirdiyi silsilə tədbirlərin tərkib hissəsi idi. Sarayın arxitekturasında Azərbaycanın milli memarlıq elementlərindən geniş istifadə olunub.

Öz əzəməti və bənzərsiz memarlıq üslubu ilə seçilən "Gülüstan" sarayında tarixi əhəmiyyət kəsb edən, müxtəlif sahələrə aid bir sıra ümumrespublika və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilib. Onların arasında "Əsrin müqaviləsi"nin imzalanması və digər tarixi hadisələri qeyd etmək olar. Zaman keçdikcə "Gülüstan" sarayının yenidən qurulmasına zərurət yaranmışdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial infrastrukturun inkişafı və müasirləşdirilməsi, regionların və paytaxtımızın daha da abadlaşması, eyni zamanda, Bakının tarixi görkəminin saxlanılması, tarixi binaların bərpası ilə bağlı layihələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlətimizin başçısının tapşırığı ilə "Gülüstan" sarayının yenidən qurulması da bu istiqamətdə görülən işlər sırasında mühüm yer tutur.

"Gülüstan" sarayında 600 yerlik əsas zal, həmçinin "Şərq" zalı və konfrans zalı da müasir səviyyədə yenidən qurulub. Beləliklə saray yeni görkəmdə, yeni üslubda, amma öz tarixi koloritini saxlamaqla qapılarını qonaqların üzünə açır.

Paytaxtın dağlıq hissəsində yerləşən "Gülüstan" sarayı Bakı körfəzini və şəhərin mənzərəsini seyr etmək üçün ən gözəl məkanlardan biridir. "Gülüstan" sarayının yenidən qurulması heç şübhəsiz ki, postpandemiya dövründə də Azərbaycanın yüksək səviyyədə ev sahibliyi edəcəyi beynəlxalq tədbirlərin keçirilməsi işinə öz töhfəsini verəcək.











## Rəsmi xronika

Prezident İlham Əliyev iyunun 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif olunmasına dair Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsinə dair Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmasına dair Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif olunmasına dair Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Silahlı Qüvvələrin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif olunmasına dair Sərəncam imzalayıb.

# Azərbaycan-Türkiyə

## strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından mühüm önəm daşıyır



**Ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” prinsipinə uyğun olaraq, bu gün Azərbaycan-Türkiyə əməkdaşlığı uğurla inkişaf edir. Ortaq maraqların və dəyərlərin birləşdirdiyi bu iki ölkə dünya miqyasında ən yaxın strateji müttəfiqlər kimi daim bir-birinin yanındadır. Qırx dörd günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstək buna bariz nümunədir. Belə ki, savaş dövründə ilk günlərdən etibarən Türkiyə Prezidenti açıqlamalar verirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əslində, bu, bir çox ölkələr və beynəlxalq təşkilatlar üçün bir mesaj idi, yəni, “kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın” anlamını ifadə edirdi. Başqa sözlə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını hədsiz sevindirirdi.**

Xatırladaq ki, ötən il oktyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev “CNN International” televiziya kanalına verdiyi müsahibədə jurnalistin - “Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə, guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?” - sualına cavabında da bildirirdi ki, bəli, Azərbaycan Silahlı Qüvvələrində türk avadanlığı var, amma türk qüvvələri yoxdur: “Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki onun sizdən eşitdiyim sözləri tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır” ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər”.

Dövlətimizin başçısı daha sonra Ermənistanın prezidentinə xitabən bildirmişdi ki, 1990-cı illərin əvvəlində işğalçı tərəfindən Azərbaycan torpaqları ələ keçirildikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan rəhbərinin “Azərbaycana kimsə kömək edir” deməsi tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik.

Bəli, qardaşlıq missiyasını layiqincə yerinə yetirən Türkiyə İkinci Qarabağ müharibəsində olduğu kimi, savaş bitəndən indiyədək daim Azərbaycanın yanında olub, hər zaman ölkəmizə siyasi, diplomatik və mənəvi dəstək göstərib. Bakıda keçirilən möhtəşəm Zəfər paradında da sevincini, fərəhini xalqımızla bölüşüb. Ümumiyyətlə, Prezident Rəcəb Tayyib Ərdoğanın həmin paradda iştirakı Azərbaycan xalqını qələbə müjdəli gələcəyə ruhlandırıb.

Vətən müharibəsində Türkiyənin müdafiə və xarici işlər nazirləri, digər yüksək vəzifəli rəsmiləri tərəfindən də Azərbaycana birmənalı olaraq siyasi, diplomatik və mənəvi dəstək göstərildi. Bu, xalqımıza çox böyük siyasi və mənəvi güc vermək demək idi.

Hazırda hər iki dövlət başçısının uğurla davam edən səmimi dostluq və qardaşlıq münasibətləri, tərəfdaşlığın genişləndirilməsinə verdikləri böyük önəm əlaqələrin daha da dərinləşməsini şərtləndirir. Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) martın 31-də videokonfrans vasitəsilə keçirilən qeyri-rəsmi Zirvə görüşündəki çıxışında bu barədə deyib: “Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq. Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır...”.

Dövlətimizin başçısı daha sonra bu sözlərin çox ciddi mesaj, siqnal olduğunu, Azərbaycanın əks-hücum əməliyyatını uğurla reallaşdırmağa müsbət təsir göstərdiyini, hər hansı bir kənar qüvvənin məsələyə müdaxilə etməsinə imkan vermədiyini və bütün bu dəstəyə görə qardaş Türkiyəyə, onun Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürünü bildirib.

Burada bir məqamı da vurğulamaq istərdik. İki ölkə arasında hərbi əməkdaşlıq dostluq və qardaşlıq münasibətləri üzərində qurulub. Bu əlaqələr getdikcə möhkəmlənir. Dövlətlərimiz arasında münasibətlərin inkişafında təbii ki, ölkə rəhbərlərinin dostluq münasibətləri mühüm rol oynayır. Azərbaycan Ordusunun silahlanmasına önəmli təsir göstərən “Baykar” şirkətinin istehsal etdiyi pilotsuz uçuş aparatlarının (PUA) hərbi potensialımızı əhəmiyyətli dərəcədə gücləndirməsi də bu fikrin bariz ifadəsidir. Həmin PUA-ların Vətən müharibəsində səmərəli tətbiqi nəticəsində düşmənə ciddi zərbə vurulması, işğalçının xeyli sayda canlı qüvvəsi və döyüş texnikasının məhv edilməsi də önəmli fakt kimi diqqət çəkir.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 1-də Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı və “ASELSAN” şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edərkən də bu barədə ətraflı danışılıb. Dövlətimizin başçısı görüşdə qardaş ölkənin müdafiə sənayesinin əldə etdiyi nailiyyətlərə toxunaraq, Selçuk Bayraktarın bu uğurların önündə getdiyini vurğulayıb, “Baykar” şirkətinin istehsalı olan məhsulların torpaqlarımızın düşməndən təmizlənməsi zamanı işğalçı texnikasının məhv edilməsindəki rolunu vurğulayıb.

Bu amil Türkiyədə müdafiə sənayesinin yüksək sürətlə inkişafından xəbər verir. Artıq dünya üçün sirr deyil ki, Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycan da Vətən müharibəsində məharətlə istifadə edərək, böyük üstünlük qazanıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Selçuk Bayraktarı “Qarabağ” ordeni ilə təltif edib.



Türkiyə müharibədən sonra Qarabağda təhlükəsizliyin təmin olunması və nəzarətdə saxlanılması prosesinə də dəstəyini verir. Bu gün Ağdam rayonunun Mərzili kəndi yaxınlığında Rusiya-Türkiyə Monitorinq Mərkəzi fəaliyyət göstərir. Əlbəttə, birgə Monitorinq Mərkəzinin fəaliyyəti bölgəmizin sabitliyini qorumaq üçün çox önəmli amildir. Mərkəz pilotsuz uçuş aparatlarından da istifadə edərək monitorinqlər aparır.

Burada onu da deyək ki, Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında azad edilən ərazilərin bərpası prosesindən danışarkən, bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetiriləcəyini xüsusi vurğulayıb. Ölkə rəhbəri bu zaman qardaş Türkiyənin Azərbaycana münasibəti barədə xüsusi danışıb, bu ölkənin müharibənin ilk günlərindən haqq işimizə böyük dəstək verdiyini xatırladıb. Bütün bunlardan sonra təbii ki, qardaş ölkə Qarabağın bərpasında da köməyini əsirgəməyəcək. İlk müqavilələrin Türkiyə şirkətləri ilə imzalanması da bunun bariz ifadəsidir.

Türkiyə şirkətlərinin Qarabağın yenidənqurma işlərində də səmərəli iştirakından bəhs edən Prezident İlham Əliyev deyib: “Ümumilikdə, Türkiyə şirkətləri Azərbaycanda təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər. Əlbəttə ki, işğaldan azad edilmiş torpaqlarda da bir çox sahələrdə Türkiyə şirkətləri uğurlu fəaliyyət göstərəcəklər”.

Hazırda türk şirkətləri Azərbaycan üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşasında, eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə magistralın çəkilişində səmərəli fəaliyyət göstərirlər. Onların digər infrastruktur layihələrinin icrasında və tarixi abidələrimizin bərpasında da Azərbaycana qardaşlıq köməyi edəcəkləri nəzərdə tutulur.

Hazırda ölkələrimiz arasında tranzit-logistika, gömrük, İKT, ticarət və s. sahələrdə əlaqələrin genişləndirilməsi, ərazilərimizin işğaldan azad edilməsi ilə əlaqədar yaranmış yeni reallıqlara uyğun olaraq, iqtisadi əlaqələrin daha da inkişafı yönündə layihələrin reallaşdırılması diqqət mərkəzində saxlanılır. Bunlarla bərabər, iki dövlət arasında Preferensial Ticarət Sazişinə əsasən, qarşılıqlı ticarət həcminin və məhsul çeşidinin artırılmasına xüsusi önəm verilir.

Xatırladaq ki, bu gün Türkiyə Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır. Belə ki, 2020-ci ildə Türkiyə ilə Azərbaycanın ticarət dövriyyəsi 2019-cu illə müqayisədə 187,296 milyon dollar artaraq 2,221 milyard dollar təşkil edib. İl ərzində Türkiyədən Azərbaycana ixrac 1,855 milyard dollar, Azərbaycandan idxal isə 366 milyon dollara bərabər olub.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrlə büruzə verir. Bu layihələr 1994-cü ildə “Əsrin müqaviləsi” ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə genişlənib. Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər. Bu layihələr regionda iqtisadi inteqrasiyanın güclənməsi, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətlidir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə liderləri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərirlər.

***Vaqif Bayramov***
***Newtimes.az***

# Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının XI hesabat konfransı keçirilib






**İyunun 24-də Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Konfransın gündəliyi təsdiq olunduqdan sonra YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası ötən dövrdə ümumxalq birliyinin təcəssümü kimi formalaşmış bir siyasi qüvvə olduğunu təsdiqləyib.





Təşkilat sədrinin sözlərinə görə, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz işğal olunmuş torpaqları azad etdikdən sonra yeni reallıqlar yaranıb. Yeni Azərbaycan Partiyası da bu reallıqlardan çıxış edərək, qarşımızda duran yeni vəzifələrin yerinə yetirilməsi naminə öz yolunu davam etdirir.

T.Əhmədov qeyd edib ki, ötən konfransdan keçən dövr ərzində YAP Yasamal rayon təşkilatının sıralarına 5674 nəfər üzv qəbul olunub. Onların 1889 nəfəri gənclər, 2325 nəfəri isə qadınlardır. Eyni zamanda, 25 yeni ərazi ilk partiya təşkilatı yaradılıb. Hazırda isə təşkilatda 135 ərazi ilk partiya təşkilatı üzrə 32 min 400 nəfərdən artıq üzv birləşib.






Sonra YAP Yasamal rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Malik Heydərovun hesabatı dinlənilib.

Daha sonra YAP Yasamal rayon təşkilatının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Müzakirələr zamanı YAP Veteranlar Şurasının üzvü, BDU-nun professoru Şahlar Əsgərov, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov, BDU-nun professoru, tarix elmləri doktoru İradə Hüseynova, Bakı Biznes Universitetinin rektoru İbad Abbasov, Azərbaycan Texniki Universitetinin professoru Şikar Qasımov və YAP Yasamal rayon təşkilatının fəal üzvü İlqar Quliyev çıxış edərək YAP Yasamal rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, 44 günlük Vətən müharibəsində əldə olunan parlaq qələbə nəticəsində ərazi bütövlüyü təmin olunan Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirilir. Bu proseslərdə YAP daim ön sırada olub. Onun sözlərinə görə, YAP üzvləri ölkəmizin daha da güclənməsi naminə partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin ən fəal dəstəkçiləri olmaqla, bu siyasətin uğurlarını xalq arasında geniş təbliğ etməkdədir.





YAP Yasamal rayon təşkilatının fəaliyyətini müsbət qiymətləndirən Əhliman Tağıyev təşkilatın gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, konfransda YAP Yasamal rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



## Stefan Şennak: Ermənistan mina xəritələrini verməlidir, Ağdama gedib vəziyyəti öz gözlərimlə də görmək istəyirəm

Avropa Şurası Katibliyinə müraciət edəcəyəm. Əgər razılıq olarsa və Azərbaycan tərəfi də buna etiraz etməzsə, vəziyyəti öz gözlərimlə görmək üçün azad edilmiş ərazilərə, Ağdama getmək istəyirəm. İlk dəfədir ki, ölkəniz üzrə həmməruzəçi belə bir bəyanata öz imzasını qoyur. Səbəb çox sadədir. Münaqişənin başa çatması ilə bağlı Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli Bəyanat imzalanıb. Bu Bəyanatda iki çox mühüm bənd var. Birincisi, Ermənistan mina xəritələrini təhvil verməlidir, Azərbaycan isə düşmənin əsgərlərini geri qaytarmalıdır.

Bu fikirləri AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak AZƏRTAC-a müsahibəsində deyib. O bildirib ki, mina xəritələrinin verilməsi çox vacibdir, çünki minalar dinc insanların ölümünə səbəb olur.

"Bütün dünyaya bəyan edirik ki, ərazilərin minalanmasını dayandırın. Bu səbəbdən də Azərbaycanın bu xəritələri əldə etməsi mühüm əhəmiyyət daşıyır. Artıq sülhün bərqərar olmasının, iki dövlətin yanaşı, dinc yaşamasının vaxtı çatıb. Bunun üçün qarşılıqlı etimad, inam formalaşdırılmalıdır. İyunun 12-də əldə edilmiş belə razılaşmaların gələcəkdə də mümkün olacağına inanıram. Avropa Şurası Katibliyinə müraciət edəcəyəm. Əgər etiraz olmazsa, Azərbaycan tərəfi də buna etiraz etməzsə, mən vəziyyəti öz gözlərimlə görmək üçün azad edilmiş ərazilərə, o cümlədən Ağdama getmək istəyərəm", - deyə AŞPA-nın avstriyalı üzvü və qurumun Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak vurğulayıb.

## "Hraparak": Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq sazişə imza atacaq!

Ermənistan tərəfi silahlı birləşmələrini geri çəkməyə hazırlaşır, Azərbaycanla danışıqlar aparılır. SİA xəbər verir ki, bu barədə erməni KİV-ləri Ermənistan respublikası silahlı qüvvələrinin Baş qərargah rəisi Artak Davtyana istinadən yazır. Bu iddianın növbəti sübutu "Hraparak" qəzeti tərəfindən də göstərilir.



Adıçəkilən nəşr yazır ki, Ermənistanın sərhədyanı əraziləri Rusiya sülhməramlıların nəzarətlərinə veriləcək. Qəzet onu da xəbər verir ki, Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı sazişə imza atacaq.

***Rövşən***

## Məhərrəm Əliyev: "Azərbaycan Ordusu bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq"



**"Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrimizin şəxsi heyətini təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulayıram. Doğma Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, qazilərimizə şəfa diləyirəm". Bu fikirləri SİA-ya Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Administrasiyanın Hərbi məsələlər şöbəsinin rəhbəri, general-polkovnik Məhərrəm Əliyev deyib.**

"Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1998-ci ildə imzaladığı müvafiq Fərmanla Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm addım atdı və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk dəfə Azərbaycan korpusunun yaradıldığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi", deyə xatırladan Məhərrəm Əliyev vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi, dünya miqyaslı böyük siyasətçi, həm də peşəkar hərbçi idi. SİTAT: "1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə azərbaycanlıların hərbi məktəblərə daxil olmalarının təmin edilməsi, zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi, hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması ordu quruculuğu sahəsində milli maraqlarımızın nəzərə alınması istiqamətində aparılan siyasətin bünövrəsini təşkil edirdi. Xalqın təkidli çağırışlarına səs verərək 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider ordu quruculuğu sahəsində tarixi qərarlar qəbul etdi və genişmiqyaslı islahatlara start verdi. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır", - deyən Ulu Öndər, ilk növbədə, ölkədə vətəndaş həmrəyliyi və sabitliyin bərqərar olunmasına nail oldu. Silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı, dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Müəyyən qrupların və siyasi dairələrin şəxsi maraqlarına xidmət edən silahlı dəstələr buraxıldı, ayrı-ayrı qoşun növlərinin, hərbi hissələrin formalaşdırılması prosesi qısa müddət ərzində tam başa çatdırıldı, eyni zamanda, orduya çağırış və fərarilik halları ilə bağlı problemlər həll edildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı və maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı".

General-polkovnik vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin ideyalarının layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirərək müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizamlı və yüksək döyüş ruhu ilə seçilən Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasına nail oldu.

SİTAT: "Dünya miqyasında ən güclü ordular sırasında yer alan Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində mükəmməl döyüş taktikası ilə yeni nəsil müharibə nümunəsi göstərdi. Ötən illər ərzində Silahlı Qüvvələrdə çox ciddi və əhəmiyyətli işlər görülüb və bundan sonra da ordu quruculuğu sahəsində müvafiq tədbirlərin davam etdirilməsi nəzərdə tutulur. Ali Baş Komandanın tələb və tövsiyələrinə uyğun olaraq bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, daha effektiv silahların və döyüş texnikalarının istehsalı ilə müdafiə sənayesinin genişləndirilməsi, Ordu ilə digər hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, beynəlxalq təlimlərdə iştirakın təmin olunması, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması kimi tapşırıqlar durur. Cənab Ali Baş Komandan İlham Əliyev bu məsələlərə xüsusi diqqət göstərir və öz çıxışlarında Azərbaycan Ordusunun bundan sonra da gücləndiriləcəyini, dünyanın ən güclü orduları sırasında yerinin möhkəmləndiriləcəyini vurğulayır. Bu xüsusda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi-strateji əməkdaşlığın perspektivləri baxımından müstəsna əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsinin imzalanması müdafiə qabiliyyətinin və təhlükəsizliyin möhkəmləndirilməsi, birgə təlimlərin keçirilməsi və şəxsi heyət mübadiləsi, aidiyyəti strukturların əlaqəli fəaliyyətinin təmin olunması, müştərək layihələrin reallşdırılması və müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsi sahəsində ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə mühüm töhfələr verəcək tarixi bir sənəddir".

Məhərrəm Əliyev əminliklə ifadə edib ki, Azərbaycan Silahlı Qüvvələri daim Vətənin keşiyində dayanaraq, ölkənin təhlükəsizliyini, müdafiəsini və ərazi bütövlüyünün qorunması təminatını ən yüksək səviyyədə həyata keçirir.

"Sonda bir daha əminliklə qeyd etmək istərdim ki, qalib Azərbaycan Ordusu bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq, hərbi intizamını artıracaq, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək və Müzəffər Sərkərdəmiz, cənab Ali Baş Komandanımız İlham Əliyevin növbəti əmr və tapşırıqlarını yerinə yetirmək üçün hər an hazır olacaqdır", deyə Prezidentin hərbi məsələlər üzrə köməkçisi vurğulayıb.

*Rövşən*

## "Azərbaycanla Pakistan arasındakı strateji müttəfiqlik daha da möhkəmləndiriləcək"



**Azərbaycan-Pakistan əlaqələri tarixi köklərə malik olduğu qədər həm də müasir dünyamızda cərəyan edən siyasi-ictimai hadisələr, eləcə də qarşılıqlı münasibətlər fonunda inkişaf yolunu tutmaqdadır. Bu reallıq həm də onu sübut edir ki, son vaxtlar ölkələrimiz arasındakı müxtəlif və çoxşaxəli əməkdaşlıq, qardaşlıq mühitinin dinamik xarakter alması bu münasibətlərin daha sıx şəkildə davam etdirilməsinə kifayət qədər münbit zəminlər yaradır.**

Qeyd edək ki, bugünlərdə Azərbaycan Respublikasının Milli Məclisinin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə ölkə parlamentinin nümayəndə heyətinin Pakistan İslam Respublikasına səfəri və səfər çərçivəsində çoxsaylı görüşlər keçirməsi də qeyd edilən faktorları ehtiva etməkdədir. İki qardaş ölkə arasındakı münasibətlərin inkişafı ilə bağlı SİA-ya açıqlama verən Milli Məclisin İntizam komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov da qeyd edib ki, iki ölkə arasındakı əlaqələr dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. "Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanın ölkəmizə səfəri və səfər zamanı keçirilən görüşlər, müzakirələr bunu bir daha təsdiqləyir", deyə qeyd edən parlamentin komissiya sədri xatırladıb ki, Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan dövlətlərdən biri məhz Pakistan İslam Respublikası olub: "1995-ci ildə Pakistan İslam Respublikasının Prezidenti Sərdar Taruq Əhməd Xan Leqarinin Azərbaycana səfəri olub. 1996-cı ildə isə Ümummilli Liderimiz Heydər Əliyevin Pakistana səfərində nümayəndə heyətinin tərkibində mən də iştirak etmişəm və bütün bu görüşlər artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında öz müsbət həllini tapması üçün iki ölkə arasında müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın uğurla inkişaf etməsinə zəmin yaratdı".

Millət vəkilinin sözlərinə görə, qarşılıqlı əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də ciddi rol oynayır. Belə ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Pakistanda bir sıra mühüm layihələr həyata keçirib, zəlzələdən zərər çəkmiş məktəblər təmir olunub, tibb müəssisələri müvafiq avadanlıqlarla təchiz edilib. Azərbaycan və Pakistan çətin günlərdə hər zaman bir-birinin yanında olublar. Bu ənənə bu gün də davam etdirilir. Hər iki ölkə tərəfindən tez-tez qarşılıqlı səfərlər həyata keçirilir. Bunun nəticəsidir ki, Pakistan indiyədək Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb, Ermənistanın suverenliyini tanımayıb. Pakistan ilə Azərbaycan arasındakı bu isti münasibətlər parlamentlərarası əlaqələr səviyyəsində, iqtisadi, humanitar, hərbi və digər sahələrdə uğurla davam etdirilir və bu da öz bəhrəsini verməkdədir.

Eldar İbrahimov qeyd edib ki, 44 günlük Vətən müharibəsi zamanı Türkiyə kimi Pakistan da Azərbaycanın haqq işini dəstəkləyib, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasında ölkəmizin ədalətli mövqeyinin müdafiəsində prinsipiallıq nümayiş etdirib. Həmçinin Azərbaycan da Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyib və bununla əlaqədar bəyanatlar verib.

"Azərbaycan Prezidenti cənab İlham Əliyev iyunun 21-də Pakistanın Quru Qoşunlarının komandanı Qamar Cavad Bacvanı qəbul edərkən bu məqamları vurğulayıb, Pakistanın ölkəmizin haqq işinə dəstəyini yüksək qiymətləndirib. Ümumiyyətlə, hesab edirəm ki, bu səfər Pakistanla Azərbaycan arasında müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın davam etməsinin bariz nümunəsidir. Fikrimcə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında məhz xalqımız üçün əziz və müqəddəs olan 15 İyun - Milli Qurtuluş Günündə Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, bərabərliyi, həmrəyliyi və müttəfiqliyini ən üst səviyyəyə, dünya üçün nümunə, örnək ola biləcək bir məqama qaldırmaqla gələcəkdə Azərbaycanla Pakistan arasında da strateji müttəfiqlik və hərbi-siyasi əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün belə bir Bəyannamənin imzalanmasına gətirib çıxaracaq və Azərbaycan-Türkiyə-Pakistan dostluğunu, qardaşlığını daha da möhkəmləndirəcək", - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

Millət vəkili Pakistana səfər zamanı keçirilən görüşlər barədə də münasibətini açıqlayaraq qeyd edib ki, Azərbaycanın parlament heyəti səfər çərçivəsində bu ölkənin prezidenti cənab Arif Alvi, Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər, Pakistan senatının sədri Məhəmməd Sadiq Sancrani, eləcə də hər iki qurumun dostluq qrupları ilə səmərəli görüşlər keçiriblər. Görüşlər zamanı vurğulanıb ki, dost və qardaş ölkələr olan Pakistanla Azərbaycanın münasibətləri strateji müttəfiqlik səviyyəsindədir. O cümlədən, Prezident İlham Əliyev cənablarının iki ölkə arasındakı münasibətləri barədə vurğuladığı "Azərbaycanla Pakistanın bir-birinə qarşılıqlı dəstəyi bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir" fikri görüşlər əsnasında xatırlanıb.

Eldar İbrahimov keçirilən görüşlər zamanı parlamentin sədri Sahibə Qafarovanın torpaqlarımızın 30 illik işğalı dövründə dost və qardaş Pakistan dövlətinin verdiyi dəstəyinə də toxunduğunu bildirib. "Sahibə Qafarova Pakistan dövlətinə və parlamentinə Azərbaycan tərəfinin dərin minnətdarlığını bildirib. Qeyd edib ki, Xocalı faciəsi ilə əlaqədar Pakistanın parlamenti və müxtəlif qurumları tərəfindən qəbul olunmuş sənədlər böyük əhəmiyyət daşıyır", deyə o qeyd edib və onu da bildirib ki, görüşlərdə həm Pakistan dövlətinin başçısı, həm də parlamentin hər iki palatasının rəhbərləri Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən böyük sevinc və qürur hissləri duyduqlarını bildiriblər və Pakistanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini vurğulayıblar.

"Səfər çərçivəsində keçirilən görüşlərdə parlamentlərarası əlaqələrimizin inkişaf perspektivləri ətraflı müzakirə olunub, beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlığın, eləcə də ikitərəfli siyasi, iqtisadi, ticarət, mədəni əməkdaşlığın genişləndirilməsi vacibliyi vurğulanıb", deyə Eldar İbrahimov qeyd edib.

*R. Nurəddinoğlu*

## "Azərbaycan ordusu qalib ordudur"

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Ordumuzun yaradılması prosesi, əslində, ölkəmizin müstəqilliyinin tarixidir". Bunu UTOHGMİB-nın sədri, hərbi ekspert Emin Həsənli SİA-ya açıqlamasında bildirib.

Onun sözlərinə görə, tarix boyu xalqımız qəhrəmanlıq ənənələri ilə ad-san çıxarıb, yadellilərə qarşı mərdliklə döyüşüb: "Böyük sərkərdələr yetirən Azərbaycan xalqının çox yaxşı bir deyimi var: "Ordun varsa, yurdun var". Azərbaycan ordusu qalib ordudur. Yəni Azərbaycan ordusu 21-ci əsrin son savaşını qalibiyyətlə aparmış bir ordudur. Bir sözlə, ordumuz müasir, peşəkar ordudur. Döyüşən orduda xidmət edən hərbi qulluqçularımız həm peşəkardır, həm vətənpərvərdir. 44 günlük Vətən müharibəsində şəhid olan insanlarımıza Allah rəhmət eləsin, yaralılarımıza can sağlığı versin. Ordunun yaranma günü hər birimiz üçün önəmlidir. Ona görə ki, müstəqilliyi və təhlükəsizliyi qoruyan silahlı qüvvələrdir. Azərbaycan ordusu ilə Azərbaycan xalqı fəxr edir, qürur duyur və bu ordu daima Azərbaycanın müstəqilliyinin keşiyində duracaq. Hər bir tapşırığı layiqincə yerinə yetirməyə qadir bir ordumuz var. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də apardığı siyasət Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir".



*Gülyana*

# Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının XII hesabat konfransı keçirilib






İyunun 24-də Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının videoformatda XII hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov hesabat məruzəsi ilə çıxış edib. A.Hüseynov bildirib ki, YAP Qaradağ rayon təşkilatı öz fəaliyyətini partiya rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun qurub. Rayon təşkilatı özünün XI konfransında qəbul etdiyi qərarların həyata keçirilməsi istiqamətində ardıcıl işlər görüb, təşkilati, ideoloji və siyasi yönümdə fəaliyyətini genişləndirib, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Hesabat dövründə rayon təşkilatı sıralarını möhkəmləndirib, bir sıra yeni ərazi ilk partiya təşkilatları yaradılıb, ideoloji işin gücləndirilməsi istiqamətində zəruri addımlar atılıb.









Məruzədə qeyd olunub ki, təşkilatın partiya sıralarına 1117 nəfər yeni üzv qəbul olunub və hazırda 114 ərazi ilk partiya təşkilatında 12 min 256 partiya üzvü birləşib.

Daha sonra YAP Qaradağ rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Elçin Abbasovun hesabatı dinlənilib.

Müzakirələr zamanı çıxış edən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı, YAP Qaradağ rayon təşkilatının sədr müavini Süleyman Mikayılov, YAP Qaradağ rayon təşkilatının fəal üzvü Seyidməmməd Məmmədzadə, SOCAR Qobustan regional təlim mərkəzinin direktoru, ərazi partiya təşkilatının sədri Nəzakət Məmmədova, 288 nömrəli tam orta məktəbin direktoru, ərazi partiya təşkilatının sədri Taleh Quliyev, SOCAR "Metanol" zavodunun direktorunun müşaviri, ərazi partiya təşkilatının sədri Elnur Bağırov və Ə.Əmirov adına NQÇİ-nin baş metroloqu, ərazi partiya təşkilatının sədri İlqar Yusifov çıxış edərək YAP Qaradağ rayon təşkilatının hesabat dövründəki fəaliyyətinə münasibət bildiriblər.






Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, öz fəaliyyətində ölkənin problemlərinin həllini, sosial-iqtisadi inkişafını, müstəqilliyimizin daimiliyini, dövlətçiliyimizin möhkəmləndirilməsini əsas götürən Yeni Azərbaycan Partiyası respublikamızın siyasi sistemində aparıcı qüvvəyə çevrilərək 29 il ərzində öz proqram məqsədlərinə uyğun fəaliyyət göstərib. YAP Qaradağ rayon təşkilatının fəaliyyətini müsbət dəyərləndirən Ə.Tağıyev partiyanın yerli təşkilatlarının qarşısında dayanan vəzifələr haqqında da fikirlərini bildirib.

Qeyd edək ki, konfransda YAP Qaradağ rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# "Həqiqətlərin düzgün və şəffaf çatdırılması üçün jurnalistlərə təhlükəsiz şərait yaradılmalıdır"



AŞPA-nın yay sessiyası çərçivəsində media azadlığı və ictimai etimad məsələsi müzakirə olundu. Azərbaycanda bu gün medianın - ənənəvi, eləcə də sosial medianın rolu böyükdür. Bu sahədə xalq-iqtidar birliyindən danışmalıyıq. Müəyyən sosial, humanitar problemlərin həllində insanların fəal iştirakı, bunun dövlət tərəfindən diqqət mərkəzində saxlanılması və həll edilməsi nümunəvi hal kimi qəbul edilə bilər.

Bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva AZƏRTAC-a müsahibəsində deyib. O bildirib ki, bu gün medianın üzərinə böyük məsuliyyət düşür.

"44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı proseslərdə media böyük rol oynadı. Media reallıqları dünyaya çatdırmaqda, eləcə də informasiya mübarizəsində fəal oldu, jurnalistlərimiz əsl həqiqətləri dünyaya vaxtında çatdırdılar. Ancaq baş verən hadisələrlə bağlı həqiqətləri dünyaya çatdıran jurnalistlərin həyatları təhlükə altına düşür. Həqiqi məlumatlar əldə etmək və reportaj hazırlamaq üçün Kəlbəcərə gedən iki azərbaycanlı jurnalist erməni minasının partlaması ilə həyatını itirdi. Bu məsələni - yəni, jurnalistlərin həyatının təhlükə altında olması məsələsini sessiyada qaldırdıq. Əgər medianın şəffaf olmasını, məlumatların düzgün çatdırılmasını istəyiriksə, belə halların qarşısı alınmalıdır. İşğalçı və minaların təmizlənməsinə manеə törədən qüvvələrə təzyiqlər göstərilməlidir", - deyə Sevinc Fətəliyeva vurğulayıb.

Qeyd edilib ki, Azərbaycanda, eləcə də dünyanın bütün ölkələrində media çox vacib rol oynayır. Bu gün qarşımızda erməni vandalizmini dünyaya çatdırmaq vəzifəsi dayanır. Bu, çox məsuliyyətli işdir. Belə məlumatların düzgün çatdırılması üçün jurnalistlərə təhlükəsiz şərait yaradılmalıdır.

# Mariya Rizzotti: Artıq müharibə bitib, indi sülhün bərqərar olması barədə düşünmək lazımdır



Bu gün AŞPA saytında dərc olunan və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə yerləşdirilmiş mina xəritələrinin verilməsinin təciliiliyini tələb edən bəyanata imza atdım. Hesab edirəm ki, 30 illik işğaldan sonra sülh bəyannaməsinin imzalanması Qarabağda yenidənqurma işləri üçün çox vacibdir. Mən Qarabağda yenidənqurma işlərinin şahidiyəm. Müharibədən sonra azad olunmuş ərazilərə səfər edən ilk avropalı parlamentarilər qrupunun tərkibinə daxil idim.

Bu fikirləri İtaliyanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Mariya Rizzotti AZƏRTAC-a müsahibəsində deyib.

Ermənilərin mina xəritələrini təcili surətdə verməli olduqlarını bildirən M.Rizzotti qeyd edib: "Mina xəritələrindən danışanda gözlərim önündə ilk canlanan həmin ərazilərdə oynayan uşaqlar olur. Orada oynayan uşaqların, orada yenidənqurma işlərində iştirak edən günahsız insanların, bərpa prosesinə qatılan xarici şirkətlərin nümayəndələrinin basdırılmış minalardan həlak və ya əlil olması qəbuledilməzdir. Piyada əleyhinə minalardan istifadə beynəlxalq konvensiyalarla qadağandır. Münaqişə baş vermiş digər ölkələrdə uşaqların mina partlayışlarından necə həlak olduqlarını görmüşük və bir daha belə hallara yol verməк olmaz. Hər hansı bir ölkənin mina xəritəsini verməməsi ucbatından həmin dəhşətli səhnələrin təkrarlanmasına yol verə bilmərik".

Qeyd edilib ki, mina xəritələrini verməməklə Qarabağdakı yenidənqurma işlərinə, eləcə də 30 il əvvəl doğma evlərindən didərgin salınmış bir milyonadək azərbaycanlı məcburi köçkünün evlərinə qayıtmasına manеə yaratmaq olmaz.

"Azərbaycan Respublikasının Prezidenti çıxışlarında sülhdən, eləcə də Qarabağı birlikdə yenidən qurmaqdan, Qarabağda birgə sülh şəraitində yaşamaqdan danışır. Bu, Ermənistan üçün də böyük imkanlar yaradır. Bu gün Bakıda bütün digər dini icmalar kimi, 20 minədək erməni yaşayır. Bu, Azərbaycanın çoxmədəniyyətliliyinin və tolerantlığının nümayişidir. Qarabağ münaqişəsi dini münaqişə deyildi. Azərbaycan dünyəvi müsəlman ölkəsidir. Azərbaycan bir sıra Qərb ölkələrindən əvvəl qadınlara səsvermə hüququ verib. Azərbaycan yüksək dəyərlərini və bütün etnik qruplara qarşı hörmətlə yanaşdığını nümayiş etdirib. Təsəvvür edə bilmirəm ki, mina xəritələrini necə verməmək olar", - deyə M.Rizzotti vurğulayıb.

Diqqətə çatdırılıb ki, 30 il ərzində beynəlxalq təşkilatların - Avropa Şurasının, BMT-nin işğal edilmiş ərazilərin azad olunması ilə bağlı çoxsaylı qətnamə və qərarları olub. Təəssüf ki, diplomatiya müharibə etdiyini edə bilmədi. Azərbaycan xalqı müharibə yolu ilə torpaqlarını qaytardı və illər əvvəl doğma yurdundan didərgin düşən insanlara torpaqlarını qaytardı. Artıq münaqişə bitib. İndi Qarabağda azərbaycanlı və erməni icmaları arasında sülhün bərqərar olması haqqında düşünmək lazımdır.

# USAİD korrupsiya ilə mübarizəni, korrupsiyanı təşviq etməklə aparırmış!

**"Korrupsiya ABŞ-ın milli təhlükəsizliyi və ümumilikdə demokratiya üçün təhlükə yaradır, korrupsiya ilə mübarizə bizim hökumətin əsas prioriteti olacaq". Bu sözləri Co Bayden saxta seçkilər vasitəsi ilə hakimiyyətə gəldikdən sonra "Korrupsiya ilə mübarizə üzrə Memorandumu" imzalayaraq demişdi. Görünür, özü kimi zəif (istər fiziki, istər anlaqlılıq cəhətdən) bir siyasətçinin hakimiyyətə gətirilməsində korrupsiyanın nə dərəcədə böyük rol oynadığını və nə dərəcədə yüksək səviyyədə olduğunu başa düşdüyü üçün onunla mübarizəni prioritet elan etdi. Bəlkə də Bayden fikirləşir ki, korrupsiya ilə mübarizəni əsas vəzifə elan edərkən, o özünü daha çox düşünüb, yəni korrupsiya vasitəsi ilə onu kimsə hakimiyyətdən uzaqlaşdıra bilməsin.**

Onu da qeyd edək ki, memorandum korrupsiya ilə mübarizə üzrə bir çox sahələri əhatə edir. Məsələn memorandumda deyilir ki, ABŞ-ın dövlət büdcəsindən aparılan bütün ölkədaxili və ölkəxarici qanunsuz maliyyələşməyə son qoyulmalıdır. Beləliklə, ABŞ özü xaricdə çoxsaylı qanunsuz maliyyələşmələrin baş verdiyini etiraf edir. Lakin ABŞ mübarizəni də özünəməxsus qaydada aparır- yeni korrupsiya sxemləri tətbiq etməklə...



12:21
USAID FROM THE AMERICAN PEOPLE
MENU
GO
Home » Work With USAID » Find a Funding Opportunity » Business Forecast » Search » Business Forecast

BUSINESS FORECAST
Show Navigation
Return to search results

SOCIAL ENGAGEMENT SUPPORT (SES) ACTIVITY
A&A Plan ID: AA-314197
NAICS Code: TBD
Fiscal Year of Action: 2021
Last updated: 4/16/2021

Operating Unit: Azerbaijan
Sector: [redacted]
Democracy, Human Rights, and Governance
A&A Specialist / POC: Kenul Salimova
Award Length: 5 years
Eligibility Criteria: Unrestricted
Principal Geographic Code:
- 937- Default Geographical Code
- 110 - New Independent States

Award/Action Type: Cooperative Agreement
Category Management
Contract Vehicle: N/A
Solicitation Number: TBD
Small Business Set-Aside: N/A
Co-creation: TBD

Anticipated Solicitation Release Date: 4/21/2021
Anticipated Award Date: 9/30/2021
Total Estimated Cost/Amount Range: $10M - $24.99M

This activity's objective is to strengthen local partnerships to enhance citizen participation in advancing Azerbaijan's social and economic development.

Xarici maliyyələşmənin əsas korrupsiya mexanizmi isə şübhəsiz ki, USAİD-dir və bu təşkilat dəfələrlə müxtəlif növ qalmaqalların mərkəzində olaraq ifşa olunub.

"Bu, elə əsl korrupsiyadır və biz bunu maliyyəşdiririk?". Bu sualı USAİD-in Əfqanistandakı fəaliyyətinə dair hesabatını dinləyən konqresmen Ceyson Çafits (Jason E. Chaffetz) USAİD-in nümayəndəsinə verib. Bu prosesi geniş şəkildə məşhur FOX-NYUS işıqlandırmışdı.

https://www.foxnews.com/politics/slush-fund-usaid-under-fire-for-paying-afghan-other-governments-to-pass-laws

USAİD-in gerçək məqsədləri haqqında nüfuzlu "Los Angesel Times" geniş məqalə yazaraq bu qurumu "dövlət çevrilişləri mühəndisi" adlandırıb.

https://www.latimes.com/world/la-xpm-2013-may-06-la-fg-usaid-troubles-20130507-story.html

14 mart 2017-ci ildə əvvəllər prezidentliyə namizəd olmuş Senator Ted Kruz da daxil olan bir qrup ABŞ senatoru o vaxt dövlət katibi olan Reks Tillersona müraciət edərək Amerika vergi ödəyicilərin USAİD-ə ayrılan vəsaitlərin Corc Sorosa məxsus təşkilatlar vasitəsi ilə digər ölkələrdə siyasi çevrilişlər üçün istifadə edilməsi məsələsini araşdırmağı tələb etmişdi və bu rəsmi müraciətdə Corc Sorosun özünün də etirafına görə əsas "vuran əli" olan və hazırda Azərbaycanda qanunsuz fəaliyyət göstərən "Şərq-Qərb İdarəetmə İnstitutunun" və onun qalmaqallı nümayəndəsi Delina Fico-nun adı xüsusi vurğulanmışdı.

https://www.foxnews.com/politics/gop-senators-ask-tillerson-to-probe-us-funding-of-soros-groups-abroad

https://exit.al/en/2017/03/15/senators-to-secretary-tillerson-investigate-links-of-usaid-and-soros-in-albania/

2006-cı ilin iyun ayında Harvard Universitetinin professorları İlyana Kuzmenko və Erik Verker "Təhlükəsizlik Şurasında yerin qiyməti neçəyədir? BMT-də xarici yardım və rüşvət" (How Much Is a Seat on the Security Council Worth? Foreign Aid and Bribery at the United Nations) adlı məqalədə ABŞ-ın USAİD və digər yardım proqramlarını birbaşa korrupsiya və rüşvət vasitəsi kimi istifadə edərək BMT-nin TŞ-na rotasiya əsasında seçilən qeyri-daimi üzv ölkələrin ABŞ maraqlarına xidmət etmələrinə nail olduqlarını sübut etmişdilər.

https://www.hbs.edu/ris/Publication%20Files/06-029.pdf

Yuxarıda qeyd etdiklərimiz faktlar isə hamısı deyil, sadəcə, bir neçəsidir, əslində isə, artıq USAİD-in əsas məramı heç kim üçün sirr deyil. Axı ABŞ-ın "yumsaq qüvvəsi" olan USAİD məhz o məqsədlə yaradılmışdı ki, ABŞ birbaşa hərbi yolla daxil ola bilməyən ölkələrə məhz "yardım" göstərmək məqsədi ilə daxil olaraq dolların gücü hesabına ABŞ-ı qane etmədiyi hökumətləri devirsinlər.



Əslində, demokratlar heç bunu gizlətmirlər də. Məsələn, ABŞ-ın dövlət katibi və Sorosun yetişdirməsi olan Blinken, hələ ilk çıxışında bəyan etmişdi, SİTAT: "...Biz artıq demokratiyanı bahalı hərbi əməliyyatlar vasitəsilə yürütməyəcəyik... Biz demokratiyanı partnyorlarını mükafatlandırmağla yürüdəcəyik..."

Əlbəttə, bunu artıq bütün ölkələr bilir və bir çoxu bu səbəbdən USAİD-i öz ərazilərindən, sözün əsl mənasında, qovub. Şübhəsiz ki, USAİD-i qovanlar əsasən güclü dövlətlərdir və belə dövlətlərin dollara satılmayan məmurlarıdır.

https://qz.com/203935/countries-are-right-to-ban-usaid/

USAİD-in Azərbaycandakı fəaliyyətlərinə dair də çoxlu suallar həmişə olub. Burada bir neçə məqamı önə çəkmək olaq:

- Ən əsas və başlıcası odur ki, hər yerdə şəffaflıqdan danışan USAİD-in ölkəmizdəki fəaliyyəti tamamilə qeyri-şəffafdır. USAİD-in paylaşdığı məlumatlar sırf təbliğat xarakterli məlumatlardır və necə deyərlər, "gözdən pərdə asmaqdan" ötrüdür. "Pərdənin" arxasında isə nələr baş verdiyini, sadəcə, ehtimal etmək olar, amma artıq bu sahədə də bəzi faktlar üzə çıxıb.

Qeyri-şəffaflığı göstərən fakt odur ki, USAİD-in rəsmi səhifəsində belə onun Azərbaycandakı fəaliyyətlərinə dair hər hansı bir rəsmi hesabat yoxdur. Onun "paylaşdığı" qrantları icra edən heç bir təşkilatın hesabatını görmək olmur. Bu, özü-özlüyündə böyük göstəricidir. Əgər vəsaitlər dürüst və elan olunan məqsədlərə istifadə olunsaydı, belə hesabatların yerləşdirilməsində heç bir problem olmazdı.

- USAİD-lə qrantalanlar haqqında hər hansı bir məlumat tapmaq qeyri-mümkündür. Bu da qrantyeyənlərin qeyri-şəffav yolla seçilməsinə dəlalət edir. Əsas sual da odur ki, necə olur ki, illər boyu USAİD-ən qrantları elə eyni təşkilatlar alır? Ölkədə bu qədər yeni qurum və təşkilatlar olduğu halda. Bütün bunlar korrupsiya mexanizmləri deyilsə, onda nədir? Bəzən isə qrantlar, ümumiyyətlə, heç kim tanımadığı "gecəqondu" təşkilatlara verilir ki, bu isə "klassik" korrupsiya sxemlərindən biridir.




Və nəhayət, USAİD-in Azərbaycanda qeyri-şəffaf fəaliyyətlərinə dair konkret faktlar əldə etmişik. Əldə etdiyimiz faktlara əsasən, yuxarıda adını qeyd etdiyimiz və dəfələrlə yazılarımızda ifşa etdiyimiz Sorosun "Şərq-Qərb İdarəetmə İnstitutu" adlı təşkilatı USAİD-in Azərbaycandakı ofisi ilə öncədən əlbir olmaqla yeni layihələri birlikdə hazırlayır və sonra həmin layihələrin qalibi olur. Aşağıda belə sövdələşməni təsdiq edən e-maili təqdim edirik:




Lakin öncədən onu da qeyd edək ki, bu mesaj hələ 2020-ci ilin avqust ayında USAİD-ə "Şərq-Qərb İdarəetmə Institutu" icra etdiyi SEDA adlı layihə bitdikdən sonda "SEDA- sonrakı ideyalar" adlı layihə sənədini təqdim edir. Mesajı bizim yazılarımızdan yaxşı tanıdığınız "əməkdar" sorosçu Delina Fico göndərib. Mesajdan o da məlum olur ki, USAİD-in yeni layihəsinin hazırlanması üzrə qanunsuz sövdələşmədə birbaşa ŞQİİ-nin rəhbəri Adrian Heyrik də iştirak edib.

Xatırladaq ki, Adrianı ŞQİİ-ni rəhbəridir və Corc Soros hələ 1988-ci ildə bu təşkilatı yaradanda həmin vəzifəyə təyin edilib. Link aşağıda :

https://pitchbook.com/profiles/company/110103-76#board

Nəhayət, mesajın sonunda Delina deyir ki, "sənəd biz danışdığımız qaydada getməyə hazırdır". Danışılan qayda dedikdə isə çox şübhəsiz, gizli qaydada nəzərdə tutulur ki, başqalarının xəbəri olmasın və sövdələşmə baş tutsun. USAİD-in bu sövdələşmədə olan maraqlarına dair isə arıq heç bir şübhə qalmır!

Xüsusi olaraq isə qeyd etmək istərdik ki, bu mesajda söhbət USAİD-in yeni "İctimai Fəaliyyətə Dəstək" (Social Engagement Support (SES)) adlı layihəsindən gedir. İndi isə xatırladaq ki, rəsmi olaraq USAİD bu layihənin elanını 2021-ci ilin aprel ayında vermişdi və hazırda layihənin "ŞQİİ" adına rəsmiləşdirilməsi gedir.

Bəs görəsən bu faktlar üzə çıxandan sonra USAİD daha nə deyəcək və ya bəhalər irəli sürəcək? Necə olur ki, USAİD-in layihə icraçısı yeni layihəni hazırlayıb konfidensial qaydada USAİD-ə təqdim edir, sonra isə bu qurum həmin layihəni "yeni layihə" adı ilə elan edir və həmin layihəni hazırlayana ayırır. Onda belə sövdələşməyə nə ad qoymaq olar? Hesab edirik ki, ən uyğun ad elə korrupsiyadır! Gözləyək görək USAİD-dəki demokratlar bu vəziyyətdən necə çıxmağa salışacaqlar.

https://sia.az/az/news/politics/869592.html

USAİD-in rəhbərliyinə gətirilən ermənipərəst Samanta Pouerə isə məsləhət verərdik ki, gedib qondarma erməni soyqırımı "qurbanlarının" İrəvandakı "abidəsi" qarşısında baş əyərək artistcəsinə ağlayıb-sızlaması yerinə, gedib fikirləşsin ki, onun rəhbərlik etdiyi təşkilat hansı rüsvayçılıqlarla məşğul olur.

Bəli, Samanta Pauer, əgər ədalət axtarırsa, onu birinci növbədə özündə və rəhbərlik etdiyin qurumda axtar, tarixi isə burax tarixçilərin ixtiyarına!

***Rövşən RƏSULOV***

# Belçika telekanalının saytında işğaldan azad olunmuş Ağdam haqqında reportaj yayımlanıb

**Belçikanın "VRT" (Flamand Teleradiosu) telekanalının saytında işğaldan azad olunmuş Ağdam haqqında reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, aparıcı reportajın əvvəlində "Qafqazın Xirosiması" adlanan Ağdama səfərindən bəhs edir, işğal dövründə şəhərin tamamilə dağıdıldığı, evlərin talan olunduğu, salamat saxlanan yeganə məscidin isə səmti müəyyən etmək üçün istifadə olunduğu qeyd edilir.**

Reportajda 30 ilədək davam edən işğaldan sonra ilk dəfə doğma torpaqlarına geri dönən sakinlərin fikirlərinə də yer verilir. Yerli sakinlər şəhərin işğaldan əvvəlki həyatı haqqında danışaraq, indi bu ərazilərin tanınmaz hala düşdüyünü bildirirlər. Ermənilərin dinc sakinləri didərgin saldığını və qətlə yetirdiyini söyləyən insanlar onlarla yenidən birgə yaşayışın heç də asan olmayacağını da ifadə edirlər. Bununla belə, doğma torpaqlarına geri qayıtmaq arzusunda olan sakinlər Ağdamda aparılan quruculuq işlərindən sonra ata-baba yurdlarında rahat yaşamaq istədiklərini söyləyirlər.














Kadrlarda Ağdamda ərazilərin minalardan təmizlənməsinin və dinc əhalinin geri dönüşünün nə qədər çətin olduğu da görünür. ANAMA-nın əməkdaşı ərazilərin mina və partlayıcı sursatlardan təmizlənməsi prosesi barədə məlumat verir. Bildirir ki, minalanmış ərazilərin xəritələrinin tam verilməməsi təmizləmə işlərini daha da çətinləşdirir.

Reportajda 44 günlük Vətən müharibəsində qənimət götürülmüş erməni hərbi texnikasının nümayiş olunduğu Hərbi Qənimətlər Parkından da bəhs edilir. Birinci Qarabağ müharibəsində məcburi köçkünə çevrilən müəllim bildirir ki, məktəbliləri bu parka gətirməklə gənc nəslə öz tarixlərini dərindən mənimsəmək, ona sahib çıxmaq baxımından önəmlidir.

Reportajda üçtərəfli Bəyanatdan sonra əraziləri tərk edən ermənilərin evləri yandırmasının və təbiətə zərər vurmasının görüntüləri də yer alıb. Sonda qeyd edilib ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə başlayıb və hazırda yolların çəkilişi, yaşayış məskənlərinin bərpası və infrastruktur quruluşu layihələri həyata keçirilir. Bu layihələr sırasında Füzuli beynəlxalq hava limanı diqqəti xüsusilə cəlb edib.

# Pandemiyanın qarşısının alınması üçün Azərbaycan 30-dan çox ölkəyə və 3 beynəlxalq təşkilata yardım göstərib

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı İnkişafa Yardım Komitəsinin (OECD DAC) rəsmi internet səhifəsində Azərbaycanın xarici ölkələr və beynəlxalq təşkilatlara göstərdiyi yardımları barədə hesabatı dərc edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.**

Bildirilib ki, hesabatda aparılmış uğurlu siyasət nəticəsində ölkəmizin yardım alan dövlətdən yardım edən donora çevrildiyi, beynəlxalq yardımların operativ və əlaqələndirilmiş şəkildə göstərilməsi üçün 2011-ci ildə Xarici İşlər Nazirliyi nəzdində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) təsis olunduğu vurğulanır. Beynəlxalq yardım siyasətində Dayanıqlı İnkişaf Məqsədlərini rəhbər tutan ölkəmizin qlobal donorluq missiyasında özünə məxsus yer tutduğu, dünyada yayılmış yeni növ koronavirus pandemiyasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası tərəfindən 30-dan çox ölkəyə və 3 beynəlxalq təşkilata yardım edildiyi diqqətə çatdırılır.

Hesabatda, həmçinin AIDA-nın fəaliyyətində qlobal sülh, təhlükəsizlik və insanların firavan həyatının təmin edilməsi prinsiplərini rəhbər tutduğu, daha çox təcrübə mübadiləsi, ictimai xidmətlərin inkişafı, təhsil, səhiyyə, əmək və əhalinin sosial müdafiəsi, gənclərin və qadınların cəmiyyətdə rolunun artırılması və digər mühüm sahələrdə inkişaf etməkdə olan ölkələrdə iki və çoxtərəfli əsasda həyata keçirilən təşəbbüslərə dəstəyin göstərildiyi bildirilir. Ölkəmiz tərəfindən göstərilmiş yardımların sektorlar üzrə bölgüsü və statistik rəqəmlərlə yardımları əks olunur.

Ölkəmizin donorluq fəaliyyətinə dair məlumatların beynəlxalq hesabatlarda dərc edilməsi, onun yardım siyasətinə, yüksək iqtisadi imkanlarına beynəlxalq ictimaiyyət tərəfindən qiymətin verilməsi, Azərbaycanın regionun aparıcı dövləti kimi qəbul olunması məhz Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticələridir.

Qeyd etmək istərdik ki, 1961-ci ildə fəaliyyətə başlamış nüfuzlu beynəlxalq təşkilat olan, yüksək iqtisadi göstəricilərə malik 40 donor dövləti öz ətrafında birləşdirən OECD dünyada həyat səviyyəsinin yüksəldilməsinə xidmət edən təşəbbüs və proqramları təbliğ etməkdədir. OECD-nin vacib komitələrindən biri olan DAC isə əsasən donor dövlət və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın effektivliyinin artırılması istiqamətində səmərəli fəaliyyət göstərir.

# Milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan

*İlham Əliyev: "Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə zəruri tədbirlər həyata keçirib"*

Bütün dünya artıq iki ilə yaxındır ki, koronavirus imtahanı verir. Topsuz-tüfəngsiz atəş açan bu müharibədə yer kürəsinin bütün qitələri "gözəgörünməz düşmən"lə vuruşmağa məhkumdur. Daha doğrusu, koronavirus - silahsız-sursatsız baş verən üçüncü dünya müharibəsidir. Çünki koronavirus insanların həyatını təhlükə altında qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər, mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaradıb. Belə bir anda ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıblar.





## Virusla mübarizədə beynəlxalq həmrəylik

Bu qlobal problem bir sıra şərtləri diktə edir ki, onlardan biri də virusla mübarizədə beynəlxalq həmrəylikdir. Təsadüfi deyil ki, dünyada COVID-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Ən əsası ilk gündən koronavirusla mübarizədə beynəlxalq həmrəyliyin vacibliyini bəyan edən Prezident İlham Əliyev bu məsələdə də qlobal liderlik missiyasını öz üzərinə götürdü. Prezident İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasında çıxışı zamanı bildirib ki, milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşünün keçirilməsinin təşəbbüskarı olmuşdur: "Mən Zirvə görüşü çərçivəsində BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif etmişdim. Qoşulmama Hərəkatının bütün 120 üzvü həmin təklifi dəstəkləmişdir. Bu, onların "Bandunq Prinsipləri", Hərəkatın dəyərləri, multilateralizm və beynəlxalq həmrəyliyə sadiqliyini bir daha vurğulamış oldu. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsü dəstəkləmişdir".

İlham Əliyev vurğulayıb ki, pandemiya başlayandan bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır: "Biz pandemiyanın ilk vaxtlarında dəyərli tövsiyələrinə və öz mütəxəssislərini ölkəmizə ezam etdiyinə görə təşkilata minnətdarıq. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına toplam 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi etmişik. Bununla yanaşı, bu günədək Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir".

## Peyvənd olunmaq koronavirusu həyatımızdan çıxarmağın yeganə yoludur

Birmənalı olaraq deməliyik ki, Azərbaycan dövləti pandemiya ilə mübarizənin ilk günlərindən əhalinin həm sağlamlığını, həm də yüksək rifahını qorumaq üçün bütün lazım olan tədbirləri vaxtında və ən effektiv şəkildə həyata keçirib. Əgər bu gün Azərbaycan dünyada pandemiyanın qurbanlarının sayına görə sonuncu yerlərdə gələn ölkələrdən biridirsə, bu da məhz dövlətimiz tərəfindən həyata keçirilən qabaqlayıcı tədbirlərin səmərəliliyinin nəticəsidir. Lakin indi artıq koronavirusdan sadəcə qorunmağın deyil, onu həyatımızdan tamamilə çıxarmağın vaxtıdır. Buna isə yalnız və yalnız vaksinasiya ilə nail olmaq olar. Əslində, təkcə Azərbaycanda deyil, bütün dünyada pandemiya ilə mübarizə tədbirlərinin əsas məqsədi məhz vaksin tapılan vaxta qədər insan tələfatını minimuma endirmək idi. COVİD-19 pandemiyası bütün dünya üçün çox böyük sınaqdır və Azərbaycan çox az ölkələrdəndəndir ki, bu sınaqdan da minimal itkilərlə çıxmaqdadır. Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" qəbul olunub. Xüsusi olaraq qeyd etmək lazımdır ki, ölkə Prezidenti cənab İlham Əliyevin böyük uzaqgörənliklə ölkəmizi vaxtında daxil etdiyi vaksinasiya platformaları öz bəhrəsini verib. Məhz bu addımın nəticəsidir ki, bu gün dünyada peyvənd preparatlarının defisiti yaşandığı halda belə ölkəmizdə artıq əhalinin 4 növ vaksin seçimi var ki, onların da hər biri effektiv və təhlükəsizdir. Çünki vaksinasiya yenidən sağlam və normal həyata dönüş deməkdir. Vaksinasiya iqtisadiyyatın, təhsilin, mədəniyyətin, turizmin, idmanın, beynəlxalq əlaqələrin və ümumiyyətlə bütün sahələrin yenidən dirçəlişi deməkdir. Ən əsası isə, vaksinasiya uşaqlarımızın sağlam gələcəyinin yeganə təminatıdır və hər kəsi bu məsələdə son dərəcə məsuliyyətli, aktiv olmaqla yanaşı, birlik və həmrəylik nümayiş etdirməliyik. Məhz bu birliyin nəticəsidir ki....

## Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir

Azərbaycan dünyanın az saylı dövlətlərindəndir ki, pandemiya ilə mübarizədə ilk günlərdən qabaqlayıcı tədbirlər görərək istədiyinə nail olub. Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verən ölkə də Azərbaycan olub. Ölkəmiz 4 milyon doz vaksinin gətirilməsini öncədən təmin edib. Təsəvvür edin, bu gün dünyada onlarla dövlət var ki, hələ də vaksin ala bilməyib. Lakin Azərbaycan Avropa İttifaqından cəmi 1 ay sonra vaksinasiya işlərinə başlayıb. Azərbaycan COVAX təşəbbüsünün üzvü kimi vaksin istehsal edən bir neçə şirkətlə də müqavilə imzalayıb. Beləliklə də, ilkin mərhələdə Koreyadan "AztraZeneca" şirkətinə məxsus 84 000 doza COVID-19 vaksin dərman vasitəsi Azərbaycana göndəriləcək. Eləcə də 8 həftə ərzində Azərbaycana 218 790 doza "Pfizer-BioNTech" vaksinləri də ayrılacaq. Ümumilikdə "AztraZeneca" şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsinin may ayının sonuna qədər Azərbaycana idxalı nəzərdə tutulub. Bu gün Azərbaycanda COVID-19 əleyhinə vaksinasiyanın tam sürətlə davam etdiyi ölkələr arasındadır. Bu baxımdan, MDB ölkələrində koronavirusa qarşı peyvəndləmənin səviyyəsi barədə məlumatları da təhlil etdikdən sonra regionda peyvənd vurulmasına ilk başlayan ölkələrdən biri olan Azərbaycanın həm peyvənd alışı həcminə, həm də ondan istifadə sürətinə görə əksər ölkələri qabaqladığını görmək olar. Belə ki, açıq mənbələrdən alınan məlumatlarda zərbaycanda 518 867 nəfərin ilk doza ilə aşılandığı aydınlaşır. Bu da əhalinin 5,2%-ni təşkil edir. Rusiyada isə aşılananların sayı 6,3 milyon nəfərdir ki, bu da əhalinin 4,3%-ni təşkil edir. Bu göstərici Belarusda 2% təşkil edirsə, Moldova, Qazaxıstan və Ukraynada heç 1% səviyyəsinə çatmır. Qonşu Gürcüstan COVAX təşəbbüsü vasitəsilə 72 400 doza peyvənd əldə etmək imkanına malikdir, lakin cəmi 5 min nəfər aşılanıb. Ermənistanda isə peyvəndləmə yenicə başlama mərhələsindədir. Beləliklə də, aydınlaşır ki, Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir. Bununla bərabər hər 100 nəfərə düşən peyvənd olunmuş adam sayına görə də Azərbaycan liderlər sırasındadır, yalnız Rusiyadan geri qalırıq.

## Azərbaycanda peyvənd olunanların sayı 3 milyonu keçdi

Azərbaycanda bu gün 42 843 nəfər vaksinasiya olunub. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 22 284, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 20 559 nəfər təşkil edib. Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 3 032 516, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 1 971 930, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 1 060 586 nəfər təşkil edir.

Göründüyü kimi, rəqəmlər bir daha Azərbaycanın əhalinin peyvəndlənmə prosesinə kifayət qədər ciddi yanaşdığını sübut edir. Bir sözlə, sağlam və firavan gələcək öz əlimizdədir. Və bu gün hmı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Çünki qanun şahdır, şah qanun deyil. Heç bir şəxs öz mövqeyindən, statusundan istifadə edərək qanunları və qanunun tələblərini poza bilməz və bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

***Rəfiqə HÜSEYNOVA***

# Koronavirusa qarşı mübarizədə vaksinasiya qaçılmaz zərurətdir

Bütün dünya üçün təhlükəli virusa çevrilən COVID-19 pandemiyası ilə mübarizə hələ də davam etməkdərir. Azərbaycanda da koronavirus pandemiyası ilə mübarizə məqsədi ilə qabaqlayıcı tədbirlər görülür. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirusun yayılmasının 2020-ci il martın 11-də pandemiya elan edilməsindən sonra respublikamızda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması yönündə effektiv tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, Azərbaycanda COVID-19 koronavirus infeksiyasına ölkədə ilk yoluxma hadisəsi 2020-ci il fevralın 28-də qeydə alınmışdı. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli iradəsi və təşəbbüskarlığı sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atılıb. Belə ki, ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı təsdiq edilib. 2020-ci il 27 fevral tarixində isə koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı. Həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan dünyada pandemiya qurbanlarının sayına görə sonuncu yerlərdən birində qərarlaşır.




## ÖLKƏMİZDƏ ƏHALİYƏ KORONAVİRUSA QARŞI 3 MİLYON DOZADAN ÇOX VAKSİN VURULUB

Bu günün reallığı onu deməyə əsas verir ki, koronavirusa qalib gəlməyin yeganə yolu vaksinasiya olunmaqdır. Bu gün artıq Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə əhali koronavirusa qarşı peyvənd olunur. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Azərbaycan Cənubi Qafqazda isə ilk olaraq vaksinasiya işlərinə start vermiş ölkədir. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Artıq bu gün ölkəmizdə əhaliyə koronavirusa qarşı 3 milyon dozadan çox vaksin vurulub. Vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer" peyvəndləri istifadə edilir.

Bu gün əminliklə deyə bilərik ki, sərt karantin qaydalarının tətbiq edilməsi, vaksinasiya prosesinin sürətli və təlimatlara uyğun aparılmasının nəticəsi olaraq insanların yoluxma sayında ciddi azalmalar müşahidə olunur. Bu, kimdəsə arxayınlıq hissi yarada bilməz. Mütəxəssislərin qənaətinə əsasən, kollektiv immunitet qazanmaq üçün ölkə əhalisinin ən azı 60 faizi peyvəndləmədən keçməlidir. Peyvəndlənmənin aparılması hər bir insanın özünü və ətrafındakıları qorumaq üçün ən yaxşı vasitədir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə aparılan genişmiqyaslı kompleks tədbirlər öz nəticəsini verir və şübhəsiz ki, yaxın vaxtlarda pandemiya ilə mübarizədə daha yüksək nəticələr öz bəhrəsini verəcək. Yoluxanların sayında azalmanın müşahidə olunması karantin rejiminin yumşaldılmasına səbəb olub. Belə ki, insanların bir-biri ilə sosial əlaqələri bərpa olunur, qapalı olan məkanlar açılmaqda davam edir.

Bu gün koronavirusa yoluxanların sayı iki rəqəmli üzərində olsa da, ölüm sayı azalsa da epidemioloji vəziyyət nəzarət altındadır. Ölkəmizdə qapalı məkanlarda tibbi maska, digər qoruyucu vasitələr, dezinfeksiyaedici maddələrdən istifadə diqqətdə saxlanılır. Əhali arasında karantin rejiminə riayət olunması məqsədi ilə maarifləndirmə işləri davam edir.

***Zümrüd BAYRAMOVA***

# Bu gün dünya İlham Əliyevin yaratdığı yeni hərb modelini öyrənir

## *Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun yap.org.az-a müsahibəsi*

***- Bəxtiyar müəllim, qarşıdan 26 iyun Silahlı Qüvvələr Günü gəlir. Yəqin ki, Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra sizin də Ordumuzla, Qələbəmizlə bağlı deməyə sözünüz çoxdur...***



- Bəli, ötən ilə qədər əminliklə bildirirdik ki, Qarabağda yeni müharibə başlasa möhtərəm Prezidentimiz İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu döyüş meydanında öz sözünü deyəcək və Ermənistanın layiqli cəzasını verəcək. 44 günlük Vətən müharibəsi bizim bu əminliyimizin praktik şəkildə təsdiqi oldu. Ordumuz düşmənə elə bir layiqli dərs verdi ki, Ermənistan dövləti və onun xalqı bunu heç vaxt unutmayacaq!

Biz bu müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin timsalında döyüş meydanında qətiyyətdə mübarizə aparan qüdrətli sərkərdəni gördük. Vətən və xalq yolunda döyüşərək şəhidlik zirvəsinə ucalmağı bacaran Azərbaycan əsgərini gördük. Beşinci nəsil müharibə aparan qüdrətli Ordumuzu gördük və bütün bunların hər biri ilə qürur duyduq, fəxr etdik! Ona görə, qeyd etdiyiniz kimi, deməyə sözümüz, qürur duymağa əməlimiz də çoxdur, çünki biz qalibik, zəfər çalmış xalqıq.

Ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın işğalının bəlli səbəbləri vardı. Biz döyüşləri ona görə uduzmuşduq ki, Qarabağ münaqişəsi başlayan dövrdə Azərbaycana başçılıq edənlər qətiyyətsiz və səriştəsiz idilər, ölkənin müdafiəsini təmin etmək qabiliyyətinə malik deyildilər. Vaxtında nizami ordu yaradılmamış, torpaqların müdafiəsi təşkil edilməmişdi və üstəlik, müharibə dövlət səviyyəsində aparılmırdı. Ermənistana gəldikdə, havadarları açıq şəkildə onlara kömək göstərir, silah-sursatla təmin edir, hətta torpaqlarımızı hərbi yolla bizdən alıb onlara verirdilər. Dünya isə "məzlum və zavallı" erməni xalqının arxasında duraraq onu müdafiə edir, bizi günahlandırırdı. Amma deyən yox idi ki, bu xalq "məzlum və zavallıdırsa", özgə torpaqlarını necə, hansı gücü ilə zəbt edir, Xocalı soyqırımını necə törədir! Heç əhalisinin sayı 3 milyona çatmayan, forpost dövlət özündən güclü, əhalisinin sayı 7 milyon olan bir ölkəni işğal edə bilərmi? Hər şey bir yana, ermənilər özləri də inanmışdılar ki, torpaqları bizdən onlar döyüşərək alıblar, bizdən güclüdürlər.

Ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün sahələrdə vəziyyət kökündən dəyişdi. Heydər Əliyevin 1993-cü il noyabrın 2-də etdiyi tarixi müraciətdən sonra vahid komandanlığa əsaslanan ordu yaradıldı. Bu ordu artıq 1994-cü ilin əvvəllərində Murov dağı və Füzuli rayonu istiqamətində uğurlu hərbi əməliyyatlar həyata keçirmiş, işğal olunmuş ərazilərimizin bir qismini azad etmişdi.

Ataşkəsdən sonra ordu quruculuğu davam etdirildi, hərbi islahatlar həyata keçirildi, yeni qoşun növləri yaradıldı. 2003-cü ildən ölkəmizə rəhbərlik edən cənab İlham Əliyev ordu quruculuğunu uğurla davam etdirdi. Ən mühümü odur ki, bu dövrdə ordumuzun hərbi potensialı artırılarkən Silahlı Qüvvələrimizin arsenalına ən müasir döyüş vasitələrinin cəlb olunmasına, qoşun növləri tərəfindən ən müasir döyüş vərdişlərinin mənimsənilməsinə xüsusi diqqət yetirildi. Təsadüfi deyil ki, son illərdə reytinq agentlikləri Azərbaycanın hərbi imkanlarını yüksək qiymətləndirirdilər.

***- 44 gün ərzində Vətən müharibəsinin gedişatını ordumuzun gücünün dəyərləndirilməsi baxımından necə xarakterizə etmək olar?***

- Biz ordumuzun hansı gücə sahib olduğunu paradlarda və aprel döyüşlərində görmüşdük. Nəhayət, Vətən müharibəsi daha bariz göstərdi ki, ölkəmiz necə möhtəşəm hərbi qüdrətə malikdir.

Əvvəla, müharibə ildırım sürəti ilə getdi, Azərbaycan Ordusu hərbi əməliyyatlar zamanı daim hücumda oldu, bir dəfə də geri çəkilmədi və 44 gün ərzində bu müharibəyə 30 il hazırlıq görüb lovğa və özünə əmin vəziyyətdə dayanan düşməni darmadağın edərək kapitulyasiya sənədinə imza atmağa məcbur etdi!

İkincisi, Azərbaycan yeni strategiya və taktika tətbiq etdi, yeni növ silahlar işlətdi, düşməni vahiməyə salaraq çaş-baş qoydu, erməni ordusunu kütləvi şəkildə qaçmağa, fərarilər dəstəsinə çevrilməyə vadar etdi.

Üçüncüsü, Azərbaycan Ordusu düşmənin ənənəvi və təsirli müdafiə və hücum silahlarını, uzaqvuran topları və raket qurğularını, bütün növ zirehli texnikasını elə yerindəcə, hücum mövqeyinə çıxmasına imkan verməyərək dəqiq PUA zərbələri ilə məhv etdi!

Dördüncüsü, Azərbaycan düşmənin qısa vaxt ərzində məhvinə və panikaya düşməsinə səbəb olan ənənəvi taktikanı daha dəqiq və uğurla icra etməklə arxa cəbhə ilə ön mövqelər arasındakı əlaqələri ilk həmlədəcə kəsdi, beləliklə, düşmənə arxadan silah, sursat, canlı qüvvə, ərzaq və digər yardımların gəlməsinin qarşısını tamamilə aldı.

Beşincisi, düşməni gözləmədiyi yerdən və ağlına gətirmədiyi silahlarla vuraraq onun bütün müdafiə sistem və qurğularını əhəmiyyətsiz və mənasız duruma saldı.

Altıncısı, bu ordu Ermənistanın 30 il ərzində istehkamlar, səngərlər qurduğu, bunkerlər tikdiyi müdafiə xətlərini sürətlə ələ keçirərək düşmən qoşunlarını qorxaq və fərarilər dəstəsinə çevirdi.

Ən nəhayət, düşməni psixoloji cəhətdən iflic vəziyyətinə, rəzil, qorxaq, panik duruma salaraq onu öz əsgərlərini müdafiə səngərlərində zəncirlərlə bağlamağa, bu yolla Azərbaycan Ordusuna müqavimət göstərmək kimi gülünc, vəhşi və qəddar vasitəyə əl atmağa məcbur etdi.

***- İkinci Qarabağ müharibəsində Azərbaycan ortaya qoyduğu nümunə bütün dünyada onilliklər boyu formalaşmış döyüş nəzəriyyələrinə yenidən baxmağa vadar etdi. Bu barədə nə deyə bilərsiniz?***

- Tamamilə düz buyurursunuz, İkinci Qarabağ müşaribəsi bütün dünyada böyük rezonans doğurdu və bu gün dünya Azərbaycanın hərb təcrübəsindən öyrənir. Bir çox ölkələr Azərbaycanın 44 günlük müharibəsini təhlil edərək özünə dərs götürür. Güclü ordusu olan dövlətlər belə Qarabağ müharibəsi təcrübəsini əsas tutaraq yenidən silahlanır, ordularında və hərbi əməliyyatların aparılmasında zəruri dəyişikliklər edir. Azərbaycanın taktikasından bəhrələnərək öz ordularında müəyyən dəyişikliklər aparılması zərurətindən danışırlar.

Ona görə Azərbaycanın 44 günlük zəfər müharibəsi tarixə həm də yeni müharibə modeli kimi düşdü. Xarici mediada da bildirilirdi ki, 2020-ci ilin dekabr ayında NATO Berlində fövqəladə və məxfi toplantı keçirərək Azərbaycan Ordusunun zərbə pilotsuz aparatları və digər dronlarla Ermənistan ordusuna qarşı həyata keçirdiyi həmlələri, həmin həmlələrə dair Azərbaycan Müdafiə Nazirliyinin yaydığı görüntüləri araşdırıb. Hərbi mütəxəssislərin yekun rəyi belə olmuşdur: "Biz silahlanma və müharibə strategiyasında indiyə qədər olduğu kimi davam etsək, uduzacağıq". Bu kimi fikirləri ayrı-ayrı dövlətlərin generalları, yüksəkçinli hərbçiləri də səsləndirdilər.

Prezident İlham Əliyevin Azərbaycan rəhbərlik etdiyi dövrdə ən böyük uğurlarından biri yeni, müasir Azərbaycan Ordusunu yaratmasıdır. Bu ordu işğalçını diz üstə qoydu, belini sındırdı. Qalib Azərbaycan həm də yeni hərbi taktika və strategiya, müharibə nümunəsi göstərdi. Bu isə ilk növbədə, cənab İlham Əliyevin bütün dünya tərəfindən etiraf olunan hərbi qələbəsidir.

# AZƏRTAC ilə "China Daily" qəzeti arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyur

Çinin ingilisdilli "China Daily" qəzeti 40 illik yubileyi münasibətilə dost agentlik olan AZƏRTAC-ın təbrik məktubunu dərc edib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanovun nəşrin baş redaktoru Cou Şuçuna ünvanlandığı məktubda vurğulanır ki, əsrlərə söykənən Azərbaycan-Çin dostluq münasibətləri hazırda bütün sahələrdə uğurla inkişaf edir. Dövlət başçıları İlham Əliyev və Si Cinpin ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xüsusi önəm verirlər. Bununla bağlı media qurumlarının üzərinə də mühüm vəzifələr düşür. AZƏRTAC ilə "China Daily" qəzetinin yeni mərhələyə qədəm qoyan əməkdaşlığı ölkələrimizin və xalqlarımızın dostluğunun möhkəmlənməsinə mühüm töhfələr verir.




Qeyd edək ki, "China Daily" qəzeti ötən 40 ildə böyük inkişaf yolu keçərək, milli nəşrdən dünya səviyyəli media qurumuna çevrilib. Hazırda qəzetin çap versiyasının abunəçilərinin və rəqəmsal platformalar üzrə oxucularının sayı 350 milyon nəfərdən çoxdur.

AZƏRTAC-ın "China Daily" ilə əlaqələrinin təməli 2018-ci ildə Şanxay Əməkdaşlıq Təşkilatının Pekində keçirilən birinci Media Sammiti zamanı qoyulub. Sammit çərçivəsində qəzetin rəhbərliyi ilə keçirilən görüşdə tərəflər arasında əlaqələrin genişləndirilməsinə dair razılıq əldə olunub. O vaxtdan başlayaraq AZƏRTAC və "China Daily" xəbər mübadiləsi ilə yanaşı, jurnalistlərin təlim proqramları da daxil olmaqla, birgə layihələr həyata keçiriblər. İki ölkə arasında informasiya mübadiləsindəki fəallığına, nəşrin həyata keçirdiyi layihələrdə fəal iştirakına görə AZƏRTAC-a "China Daily"nin "Fəxri beynəlxalq media tərəfdaşı - 2019" mükafatı təqdim olunub.

# "Seçkilər Ermənistanda yeni bir gərginliyin başlanğıcıdır"

"Seçki prosesi Ermənistanda daxili siyasi sabitliyin yox, yeni bir gərginliyin başlanğıcıdır. Koçaryanın ritorikası, hərbiçilərin, hətta Ermənistan prezidentinin özünün reaksiyaları bu qənaətə gəlməyə imkan verir. Bununla bərabər Ermənistanda hərbi çevriliş cəhdləri və yaxud erməni mahiyyətinə uyğun olaraq terror aktları belə mümkündür". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.





Onun sözlərinə görə, bu kimi proseslərdən ən çox zərər çəkən tərəf erməni xalqı olacaq: "Lakin hələlik dəyişməyən bir reallıq var ki, Nikol Paşinyan artıq seçki nəticələrinə görə, qalibdir və hökuməti də tək quracağına görə, bundan sonrakı səlahiyyət dönəmində devrilməyənə qədər Ermənistan daxilində həlledici söz onun olacaq. Əslində seçki ərəfəsində sərsəm təbliğat-təşviqat bəyanatlarını çıxsaq, məğlubiyyət sonrası daha müharibə edə bilməyəcəyi reallığı ilə barışan Ermənistanın özü üçün xeyirlisi də elə Paşinyandır. Bunu erməni xalqı da başa düşür. Əks halda məğlub bir komandan müharibədən cəmi 7 ay sonra seçkidə qalib gələ bilməzdi.

Deputat həmçinin qeyd edib ki, Ermənistan xalqı da anlayır ki, problemlərin içində, uçurumun dibində olmalarına görə, əsas məsuliyyət son 3 ildə hakimiyyətdə olan Paşinyandan daha çox cinayətkar Köçəryan-Sarkisyan cütlüyünün üzərinə düşür: "Təbii ki, bütün bunlar Ermənistanın daxili işidir və proseslərin hansı istiqamətdə axınından asılı olmayaraq Azərbaycan diqtə edən dövlət kimi, beynəlxalq hüquqla ona məxsus olanı tələb edə biləcək gücdür və rəsmi Bakı regionda sülh və sabitlik, əməkdaşlıq mühitinin formalaşmasına istənilən halda nail olacaq".

**Arzu Qurbanzadə**

# “Ermənilər ona görə, Paşinyanı seçdilər ki,...”

## SİA deputat Elman Məmmədovun müsahibəsini təqdim edir:



***- Bu yaxınlarda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfər etdi və ən əlamətdar hadisə isə Şuşaya səfəri ilə bağlı oldu. Həmçinin, burada Şuşa bəyannaməsi imzalandı. Bu səfərin əhəmiyyəti, iki qardaş ölkə arasındakı münasibətlər və bu Bəyannamənin mahiyyəti haqqında nə deyə bilərsiniz?***

- Türkiyə Prezidentinin Şuşa səfəri tarixi, əlamətdar və möhtəşəm bir səfərdir. Şuşanın bünövrəsi qoyulandan indiyə qədər ilk dəfə idi ki, xarici dövlət başçısı bura dostluq, qardaşlıq münasibəti ilə səfər edirdi. Bu səfərdə düşmənə və onun havadarlarına çox ciddi mesaj verildi ki, Şuşa qədim və tarixi Azərbaycan şəhəridir. Şuşada imzalanan Bəyannamə bu günə qədər olan əməkdaşlıq və tərəfdaşlıq müqavilələrinin zirvə nöqtəsidir. Yeni müttəfiqlik haqqında bir sənəddir. Şuşa bəyannaməsi iki dövlət arasında müttəfiqlik sənədinin imzalanmasıdır. Bu çox vacibdir, ona görə ki, bu gündən sonra müdafiəmiz, təhlükəsizliyimiz, gücümüz birlikdə olacaq. Yəni, təhlükələrə qarşı bir-birimizin yanında olacağıq. Şuşa Bəyannaməsi çox mühüm tarixi sənəddir və bunun bu gün olması bizim gələcək münasibətlərimiz və inkişafımız üçün çox vacibdir.

***- Bu yaxınlarda Ermənistanda erkən seçkilər baş tutdu. Bu seçkilər sizin istədiyiniz nəticəni ortaya qoydumu? Paşinyanın seçilməsini Xocalı cəlladları Robert Koçaryan, Serj Sarkisyan üzərində qələbə də adlandırmaq olarmı?***

- Bu seçkilərin nəticələrini mən belə gözləyirdim. Nə üçün ümid edirdik ki, Paşinyan seçiləcək? Bu, o deməkdirmi ki, Paşinyan yaxşı rəhbərdir, Paşinyan xalqın etimadını doğruldur? Xeyr, Paşinyan məğlub rəhbərdir. Paşinyan məğlub ali baş komandan və məğlub baş nazir oldu! Ona görə xalq ona etimad etmədi. Birinci, başda Koçaryan-Sarkisyan cütlüyü olmaqla Paşinyanla birlikdə seçkiyə gedənlərə nəzər salaq. Kimdir bunlar? Bunlar qatillər, hərbi canilər, Ermənistanda uzun illər kriminal aləmin qanunları ilə gedən cinayətkarlardır. Bunlar müharibə generalları, erməni xalqının düşmənidir. Bunların kimliyini götürqoy edən erməni xalqı başa düşməlidir ki, Qarabağdan gəlmiş iki dılğır gədə, iki Xocalı qatili Ermənistanı bu günə salıblar. Əgər 44 günlük müharibə məğlubiyyətində günahkarlar axtarsaq, Paşinyan bəlkə də on, on beş faiz günahkar hesab olunacaq. Əsas günahkarlar Koçaryan-Sarkisyan cütlüyü olub. Ermənistanı onlar bu günə salıb. Erməni xalqı bu məğlubiyyətdən dərs alaraq, nəticə çıxartdı. Doğrudur, hamısı yox, amma çox hissəsi nəticə çıxarmağı bacardı. Ermənilər müharibədən bezməsəydilər, ölümdən qorxmasaydılar, təbii ki, Paşinyana səs verməyəcəkdilər. Üçüncü məqam nə idi? Uzun illər Koçaryan, Sarkisyan və onların ətrafında olan, rəhbərlik etdikləri “Qarabağ klanı” Ermənistanı bu gün faciəvi bir vəziyyətə gətirib çıxarıb. Qarşıdurmalar, quldurluq, cinayətkarlıq baş alıb gedirdi. Bunlar rəhbər olduğu bir müddətdə Ermənistanı çapıb, talayıb çox acınacaqlı bir hala gətiriblər. Bu səbəbdən ermənistanlı və Qarabağlı ermənilər arasında sanki düşmən mövqeyi yaranıb. Bu da ciddi amil idi və seçkilərə də təsir etdi. Sağlam düşüncəyə malik erməni xalqının bir hissəsi Nikol Paşinyanın şəxsiyyətinə və fəaliyyətinə yox, sülhə, əmin-amanlığa, əməkdaşlığa səs verdi ki, müharibə çağırışları yox, əməkdaşlıq, sülh olsun və onlar normal yaşasınlar. Bu səbəbdən Paşinyan seçkilərdə qalib gəldi. Onlar tarixən bu xəyalla, murdar fikirlə yaşayıblar və hələ də yaşayırlar. Hələ də başlarına dəyən bu dəmir yumruqlardan düzgün nəticə çıxara bilməyiblər. Sadəcə özlərinin rahatlığı üçün, övladlarının Azərbaycan torpağında ölməsinin qarşısını almaq üçün Paşinyana səs verdilər ki, Ermənistanı bu vəziyyətdən çıxarsın.

***- Bundan sonra Paşinyan Rusiya, yoxsa qərbə yönəlmiş siyasət yürüdəcək?***

- Bu seçkilərdə Rusiya da müəyyən mənada erməni cəmiyyəti tərəfindən payını alıb və mövqelərində müəyyən zəifləmə olub. Çünki Koçaryanla Rusiya Federasiyasının rəhbərliyinin isti münasibətləri, Koçaryanın sevinə - sevinə namizədliyini verməsi və seçki kompaniyasında ağzına gələnləri çərənləməsi ilə əslində Moskvanın dəstəyinə arxayın olurdu. Amma bu belə olmadı. Erməni xalqı müharibəyə yox, sülhə və əməkdaşlığa səs verdi. Rusiya da bundan düzgün nəticə çıxartmalıdır ki, yəni, yenidən fitva verib, şirnikləndirici vədlərlə bunları nəyəsə hazırlamaq alınmayacaq. Çünki Koçaryan Şimalın namizədi olduğu kimi, Paşinyan da Qərbin namizədidir.

***- Koçaryan artıq bu seçkinin nəticələri ilə barışmaq istəmir və Qarabağda olan ermənilərin iştirakı ilə mitinqə hazırlaşır. Belə mitinqlərlə terrorçu dəstənin başçısı nəyə nail olmaq istəyir?***

- Artıq “Qarabağ klanı” Koçaryan, Sarkisyan tərəfdarlarına Qarabağda komanda verdilər. 3-cü tərəf - sülhməramlılar da orada rol oynadı. Arayikin getməsi məsələsi də gündəmdədir. Qarabağdakı cinayətkar qurum sülhməramlı adı ilə fəaliyyət göstərən Rusiya kontingentinin tam nəzarətindədir. Onlar istəsələr Arayik qalacaq, istəməsələr yerinə başqası gələcək.

***- Ermənistanın yenidən dirçəlməsi, nicat yolunu tutması üçün Azərbaycanla əməkdaşlıqda hansı istiqamətlər əsas götürülməlidir ki, bir növ özlərinə gələ bilsinlər?***

- Ermənistan yaşamaq üçün qonşularla münasibəti yaxşılaşdırmalı, Zəngəzur dəhlizini açmalı, dəmiryolu, quru yolu işləməli, kommunikasiyalar açılmalı, qonşularla əməkdaşlıq şəraiti olmalıdır. Bu bölgənin 6 dövlətinin içərisində bu, ən çox Ermənistana lazımdır. Ermənistan bütün bunlardan nəticə çıxarmağı bacarmalıdır. Əgər Ermənistan səfalət içərisində, böhran vəziyyətlərində, aclıq halında yaşamaq istəyirsə, yenə əvvəlki o murdar əməllərini davam etdirsinlər. Əgər, normal yaşamaq istəyirsə bu dövlətlərlə əməkdaşlıq etsin. Çünki başqa yolu yoxdur.

***- Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra bunun ölkəmiz üçün gətirəcəyi dividentlər nə ola bilər?***

- Bu gün Azərbaycan şərq-qərb, cənub-şimal nəqliyyat dəhlizinə malikdir. Biz artıq bu dəhlizdən istifadə edirik. Bu dəhlizin açılması Türkiyə ilə Azərbaycanı birləşdirir, İranın özünü də, Ermənistanı da, bütün Asiya dövlətlərini də şimalla, cənubla, şərqlə birləşdirir. Bu dəhlizin açılması nəqliyyat əlaqələrinin gedişinə, iqtisadiyyatın inkişafına çox ciddi təkan verəcək. Bütün altı dövlət bundan istifadə edəcək. Cənab Prezidentin dediyi kimi, çox düzgün siyasət yeridərək Ermənistanı hər şeydən məhrum etdik. Ermənistan iqtisadiyyatı bu gün sıfır vəziyyətindədir.

***- Böyük sülh sazişinin imzalanması planlaşdırılır. Qeyd olunur ki, Qazaxın 7 kəndi, Naxçıvanın isə 1 kəndi həmin sənədə əsasən azad edilə bilər. Ümumiyyətlə, bu sənədlərdən başqa daha hansı məsələlərin bu sənəddə öz əksini tapması vacibdir?***

- Birinci növbədə, Azərbaycan ərazisində 1991-ci ildə separatçılar tərəfindən yaradılmış qeyri-qanuni cinayətkar qrup ləğv olundu və cinayətkarlar cəzalarına çatdılar. Ermənistan dövlətinə aid olan terrorçu dəstələri hələ bu gün Azərbaycan ərazisində qalmaqdadır. Onların kökü kəsilməli və cəzalandırılmalıdır. Azərbaycan ərazisi tamamilə bunlardan təmizlənməlidir. Laçın dəhlizinə Azərbaycan özü nəzarət etməlidir. Biz sülh sazişinə getməliyik. Çünki, əbədi düşmənçilik olmur.

***- Artıq neçə vaxtdır ki, Ağdamda Rusiya-Türkiyə monitorinq mərkəzi fəaliyyət göstərir. Sülhməramlıların fəaliyyəti sizi qane edirmi?***

- Sülhməramlılar gəldikləri gündən öz missiyasından çox erməni maraqlarını qorumaqla məşğuldurlar. Əgər, Azərbaycan Arutunyanı, Balasanyanı və digərlərini Azərbaycan qanunları ilə cinayətkar elan edib axtarışa verirsə və orda olan bütün sülhməramlıların rəhbərliyi, başda Rüstəm Muradov olmaqla, bunlarla öpüşüb, görüşüb, əməkdaşlıq edib, oturub-durursa mən onların fəaliyyətindən necə razı qalaram?!

***- Azərbaycanın qələbəsi ilə barışmayan dövlətlər var. Onların niyyəti nədir?***

- Bu dövlətlərə belə gəlir ki, müsəlman dövlətləri normal yaşamamalıdır. Müsəlman dövlətləri həmişə bunlardan asılı olmalı, bunların istəyi, göstərişi ilə fəaliyyət göstərməlidir. Sərbəst, müstəqil olmamalıdır. Bunlar tarix boyu belə istəyiblər. Azərbaycan müstəqillik qazanandan bunların Azərbaycana təzyiqləri olub və Azərbaycanı həzm edə bilməyiblər.

***- Neçə vaxtdır ki, erməni terrorçularının məhkəmə prosesi gedir. Ümumiyyətlə onlara qarşı daha hansı cəza tətbiq olunmalıdır?***

- Onların məhkəməsi Azərbaycan qanunları çərçivəsində aparılır. Çünki onlar Azərbaycanın hüquqlarını pozublar. Azərbaycan dövlətinə və xalqına qarşı cinayət ediblər. O səviyyədə də onlar mühakimə olunur və layiqli cəzalarını alırlar.

***Ayşən Vəli***

# “Ermənistan nüfuz qazanmaq istəyirsə,...”



“Düşünürəm ki, Ermənistan prezidenti Nikol Paşinyanın rəsmi qələbəsi elan olunduqdan sonra ilk növbədə parlamentdə kimin nə qədər səs toplaması və bundan asılı olaraq hökumətin formalaşması məsələsini gündəmə gətirəcək ki, ən vacib məqamlardan biri də elə budur. Artıq mandatın sayına uyğun olaraq hökumət formalaşıb yeni baş nazir seçildikdən sonra istər iqtisadi, istər siyasi və hərbi məsələlərdə çox güman ki, yeni reformalar, hansı ki, seçki vaxtı söz verdiyi addımları atmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Arzu Nağıyev deyib.

Onun sözlərinə görə, Azərbaycanla bağlı demarkasiya və delimitasiya məsələsi sərhəd boyu davam etdiriləcək: “Zəngəzur dəhlizinin açılması və kommunikasıyaların işləməsi addımları atılmalıdır. Rusiya-Ermənistan, Türkiyə-Ermənistan və digər dövlətlərlə münasibətlərə tam şəkildə aydınlıq gətirilməlidir. Həmçinin, altılıq platformanın təklif edildiyi istiqamətdə müvafiq addımlar atılmalıdır”.

Deputat sözlərinə belə davam edib: “Yəni, tənəzzülə uğramış iqtisadiyyata, hərbiyə və siyasətə malik olan Ermənistanı bu gün ayağa qaldırmaq üçün çox mühüm addımlar atmaq lazımdır. Digər revanşistlər də susdurulmalı və bu istiqamətdə də işlər görülməlidir. Radikal qüvvələrə qarşı da hüquq mühafizə orqanları bir sıra ciddi işlər görməlidir. Əks halda, Paşinyanın qazandığı qələbədə problemlər yarana bilər”.

“Əlbəttə, özlərinin adlandırdığı qondarma əsir- girov məsələsi, bunun müqabilində xəritələrin verilməsi və s. kimi məsələlər də ən prioritet istiqamətdə olmalıdır ki, insan haqqları ilə bağlı əgər beynəlxalq səviyyədə müəyyən qədər nüfuz qazanmaq istəyirsə bunu etməlidir. Həmçinin, diaspora siyasətində də müvafiq addımlar atılmalıdır. Yəni, Azərbaycana qarşı kin-kidurət və radikal çıxışlara son qoyulmalıdır. Eyni zamanda, qondarma Qarabağda qalmış tör-töküntü separatçı qurumla da münasibətlərə aydınlıq gətirməlidir”.

# “Paşinyanın uğuru Azərbaycan və Türkiyə ilə quracağı münasibətlərdən asılıdır”



“Nikol Paşinyan seçkilərdə qələbə qazandı, uğurlu nəticə əldə etdi və Qarabağ klanını bir qədər kənara atdı. Düzdür, Qarabağ klanı uzun fasilədən sonra yenə də parlamentə qayıtmaq imkanı qazanıb. Bu da onlar üçün müəyyən qədər uğur sayıla bilər. Amma indi Paşinyan təkbaşına hökumət də formalaşdıra bilər, istədikləri nazirləri təyin edə bilər, çünki parlamentdəki səs çoxluğu buna imkan verir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib.

Mərkəzin rəhbərinin sözlərinə görə, Paşinyanın gələcək uğuru Azərbaycan və Türkiyə ilə quracağı münasibətlərdən asılıdır. “Əgər bir neçə şərti yerinə yetirərsə, Paşinyan üçün uğurlu nəticələr ola bilər. Bu, nədən ibarətdir? Birinci növbədə, Azərbaycanın ərazi bütövlüyünü, Türkiyənin ərazi bütövlüyünü tanımalıdır. İkincisi, Zəngəzur dəhlizinin işə düşməsinə mane olmamalıdır. Üçüncü və ən əsası, bəlkə də bunu birinci etməlidir, Azərbaycanın bütün minalanmış ərazilərinin xəritələrini verməlidir. Bütün bu addımları atandan sonra Azərbaycan və Türkiyə də qarşılıqlı addımlar atacaq, sərhədlər müəyyənləşəcək, Türkiyə özü də sərhədləri aça bilər, regional layihələrə Ermənistan qoşula bilər. Hətta gələcəkdə Ermənistan Azərbaycan və Türkiyə ilə diplomatik münasibətlər qura bilər və bu, Paşinyan üçün yararlı olacaq. Çünki ölkəsinə sülh, barış və sabitlik istəyirsə, iki böyük qonşusu ilə münasibətləri normallaşdırmalıdır. Düzdür, Koçaryan və Sarkisyan kimi qatillər ona mane olmağa, suyu bulandırmağa çalışacaqlar. Amma əgər Paşinyan heç nəyə baxmadan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmağa başlayarsa, mövqeləri güclənəcək və Koçaryanla Sarkisyan da onu devirə bilməyəcəklər. Paşinyana erməni cəmiyyəti ona görə səs verdi ki, bu cəmiyyət artıq müharibə istəmir və Paşinyana da bu cür mandat verirlər ki, qonşularla münasibətləri normallaşdırsın. İndi hər şey Paşinyanın özündən asılı ola bilər və baxarıq görək hadisələr gələcəkdə necə inkişaf edəcək”, deyə Elxan Şahinoğlu bildirib.

***İnam Hacıyev***

# Ermənistanın ən gərgin seçki marafonu

**Ermənistanda parlamentə keçirilən növbədənkənar seçkilər başa çatıb. Erməni KİV-nin məlumatına görə seçkilərdə fəallıq aşağı olub. Ölkə üzrə 989 972 nəfər, yaxud seçicilərin 38,17 %-i səs verib. Beləliklə, səsvermələr həm də seçicilərin passivliyi ilə seçilib.Artıq Paşinyanın rəhbərliyi altında yeni hökumət formalaşacaq. Bu hökumətin Azərbaycanın təklif etdiyi sülh müqaviləsini imzalamaqdan başqa çarəsi olmayacaq. Yəni, qarşıda sülh müqaviləsinin imzalanılması, Ermənistan baş naziri tərəfindən Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yerləşdirdiyi mina xəritələrinin ölkəmizə təhvil verilməsi, Zəngəzur dəhlizinin işə salınması və bütövlükdə əməkdaşlıq platformasının reallaşması gözlənilir. Çünki, Ermənistanın nicatı buradan keçir. Paşinyan təkbaşına hökumət qura biləcəkmi?...**

Politoloqların sözlərinə görə, Ermənistandakı seçkilərdə Qərb Rusiyaya qalib gəldi və bundan sonra Paşinyan rəsmi Kremlin ölkəsində mövqelərinin zəiflədilməsi istiqamətində siyasət aparacaq. Ermənistanda Koçaryan və Sarkisyanın etiraz aksiyaları yetərli olmayacaq. Azərbaycanla əlaqələrə gəldikdə isə, 10 noyabr və 11 yanvar razılaşmalarının yerinə yetirilməsi üçün Paşinyanın addımlar atması gözlənilir. Əgər Paşinyan Azərbaycanla əlaqələri bərpa etməsə, düşmənçilyi davam etdirsə, blokada aradan götürülməsə, o zaman Azərbaycan hərəkətə keçə bilər. Bu da N.Paşinyana qarşı daxili etirazlar formalaşdıra və hakimiyyətdən devrilə bilər. Bunu Paşinyan da çox yaxşı bilir. Ona görə də Nikol Azərbaycanla əlaqələrin normallaşdırılmasına məhkumdur.

## Dünən “kapitulyant” dediyi şəxs bu gün hökuməti formalaşdırır-səbəbi nədir?

Qeyd edək ki, dünyada çox nadir örnəklər tapmaq olar ki, hansısa lider müharibəni biabırçı şəkildə uduzandan sonra seçkidə böyük üstünlüklə qalib gəlsin. Ona görə də, hazırda bunu bacarmış Nikol Paşinyanı müəyyən mənada “fenomen” saya bilərik: dünən hamının “kapitulyant” dediyi şəxs bu gün hökuməti formalaşdırır. Bəs nədir bu fenomenin səbəbi, onu necə izah etmək mümkündür?!

Ermənistan mediası bu vacib sualın üzərindən şübhəli bir susqunluqla keçməyi üstün tutur. Səbəb təkcə həmin ölkədə normal analitik mərkəzin, sosioloji xidmətin olmaması deyil. Görünür, bu sualın cavabı ermənilər üçün son dərəcə xoşagəlməz reallığı ortaya çıxardığından, özlərinə xas hiyləgərliklə yan keçməyi üstün tuturlar.

## “Məğlub qalib” fenomenini iki əsas amilə izah etmək olar:

1) Bu, ermənilərin Rusiyaya qarşı demarşıdır. Paşinyanın aldığı səslər təkcə onu dəstəkləyənlərin yox, həm də Rusiyaya qarşı çıxanların və ölkənin şimal vektorundan uzaqlaşmasını istəyənlərin seçimi idi. Onları “Rusiyanın adamı”, “Putinin dostu” kimi stereotipik obraza malik olan Koçaryana əks qütb olaraq, səslərini Paşinyana yönəldiblər.

Bunu ənənəvi erməni nankorluğu da saymaq olar və onunla üzləşdiyinə görə Rusiya əsla təəccüblənməməlidir. Ermənilər müharibənin dayandırılmasında vasitəçiliyinə görə Rusiyaya minnətdar olmaqdansa, onların yerinə vuruşmadığı üçün nifrət etməyi seçirlər. Və bu nifrət ölkənin yönünü Qərbə tərəfə çevirən Paşinyana verilən səslərdə özünü göstərib. Paşinyanın seçki ərəfəsində Fransaya səfəri onun gələcək geosiyasi oriyentasiyasına aid açıq-aşkar mesaj idi. Və bu mesaj “işlədi”.

2) Paşinyanın böyük hesablı qələbəsi onu göstərir ki, nə demələrindən asılı olmayaraq, ermənilər Qarabağı özlərininki saymırlar və işğal etdikləri torpaqlar əllərindən çıxdığına görə peşman deyillər. Əks halda, ölkəni 44 günə biabırçı məğlubiyyətə uğradan şəxsə heç vaxt bu qədər çox səs verməzdilər. Sübut olundu ki, erməni cəmiyyəti üçün revanş götürmək, Qarabağı qaytarmaq yox, normal gün-güzəranın qurulması daha əhəmiyyətlidir. Əks halda, qismən də olsa, revanş vəd edən Koçaryana etimad göstərərdilər.

İndi əsas sual budur ki, müharibədən sonra bağlanan əl-qolu növbədənkənar seçki ilə açılmış Nikol Vovayeviç Paşinyan bu siyasi kreditdən necə istifadə edəcək? O, Azərbaycanla düzgün münasibətlər qurmaq yolunu tutmaqla ölkəsinə toparlanmaq və inkişaf etmək üçün yeni şans yarada bilər. Əks halda, həqiqi məğlubiyyəti hələ qarşıdadır...





## Qabil Hüseynli: “Erməni xalqı yorulub”

Ermənistandakı seçkilərin nəticələrini şərh edən politoloq Qabil Hüseynli bildirib ki, əslində Paşinyanın yenidən öz komandasını önə çıxaracağı gözlənilən idi. Xalq isə, Qarabağ klanından çoxdan bezmişdi: “Ermənistan tarixinin ən gərgin seçki marafonu başa çatdı. Yekun nəticələrə əsasən, Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın “Vətəndaş razılaşması” partiyası ölkənin yeni parlamentində çoxluğa sahib olacaq. Bu gün seçkinin nəticələri ilə bağlı verdiyi ilk açıqlamada o, bildirib ki, 105 mandatdan azı 71-nə sahib olmaqla, yeni hökuməti quracaqlar. Maraqlıdır, ötən ilin sonunda müharibə zamanı Azərbaycan qarşısında ağır məğlubiyyətlə üzləşib, diz çökən erməni xalqı yüksək səs çoxluğu ilə yenidən Nikol Paşinyanı seçdi. Normalda məğlub liderlər ya öz xoşu ilə kürsünü təhvil verib siyasətdən gedirlər, ya da xalq onlara ikinci dəfə şans vermir. İrəvanda bunun əksini müşahidə etdik. Xalq yenidən Qarabağda müharibə vəd edən, torpaqları geri alacaqlarına söz verənləri deyil, islahatçı, loyal mövqe sərgiləyən kapitulyatoru seçdi”.

Politoloq Q.Hüseynli onu da bildirib ki, ötən il Paşinyan ölkəsini ağır məğlubiyyətə sürüklədi: “Amma kütlə Koçaryanı da seçə bilməzdi. Bunun dərin səbəbləri var. Nikol müharibəyə qədər az bir müddətdə hakimiyyətdə təmsil olunmuşdu. Dünya bu illər ərzində Sarkisyan-Koçaryan cütlüyünün əlində olan Ermənistanı da görmüşdü. Yəni əslində məğlubiyyətin daha böyük məsuliyyəti Qarabağ klanından çıxmış bu iki kriminal tipin üzərinə düşürdü. Bu illər ərzində erməni ordusunu indi qınanılan Paşinyan formalaşdırmamışdı. Bir sözlə, xalq Paşinyanı da yaxşı tanıyırdı, Koçaryanı da. Ermənilərin gözü açılıb. Bilirlər ki, Nikol əvvəlkilərə baxanda daha yaxşıdır”.

Politoloq deyib ki, son bir ayda fəallaşan “sabiqlər” məhz Rusiyanın qanadı altında yenidən hakimiyyətə yiyələnib, Ermənistanın müstəqilliyini Kremlə təslim etmək istəyirdilər: “Alınmadı. Ermənilər öz müstəqilliyini forpost kimi Moskvaya vermək istəmədilər. Şəxsən mən Paşinyanın yüksək səs çoxluğu ilə yenidən qələbə çalmasına təəccüblənmədim. Bir şeyi unutmamalıyıq ki, ona səs verən bu 30 il ərzində daha çox zərbə almış, yoxsul duruma düşmüş sadə xalq oldu. Bu insanlar gələcəklərini iqtisadi cəhətdən inkişaf etmiş ölkədə görmək, daha etibarlı bir şəxsə tapşırmaq istəyirlər. Elə bir şəxsi kürsüdə görmək istəyirlər ki, yenidən Qarabağ nağılları danışıb, öz nəslini varlandıraraq, pulları xaricə daşımasın”.

Qabil Hüseynlinin sözlərinə görə, Paşinyan həm də qonşularla normal münasibətlər qurmağa meyllidir. Görünür artıq erməni xalqı bu amili də nəzərə alır. Çünki qonşularla əlaqələrin bərpası həssas mövzudur və hazırda belə iqtisadi-diplomatik amillər erməni cəmiyyətini ciddi məşğul edir: “Türkiyə və Azərbaycanla əlaqələrin qapalı qalması radikalların tələbi idi. Əslində onların tərəfdarları da az deyildi. Amma beş-üç faşist millətçisinin söylədiklərinə kütlənin “hə” deməsi o demək deyil ki, ümumilikdə xalq hələ də həmin provakatorların səsinə səs verir. Erməni xalqı yorulub. İnsanlar bilərəkdən Qarabağdan çıxan avantüristlərin, Ermənistanda formalaşmış faşist təbiətli adamların, illərdir xunta rejimi yaratmış Koçaryanın, Sarkisyanın istədiyi hakimiyyətin yaranmasına səs vermədi. Ölkədə uzun illər qorxulu terror küləyi əsdirən qüvvələr at oynadıb. Xüsusən Rusiyadan tez-tez təlimatlar alan siyasi qüvvələr xalqı küncə sıxmağa çalışırdı ki, insanlar yoxsul yaşayıb, daim Qarabağla bağlı gərginlikdə olsunlar. Amma xalq düşündüyü kimi hərəkət etməyi bacardı. Erməni seçicilər üçün rus quluna çevrilən Robert Koçaryan kim idi axı? 2008-ci ilin mart hadisələri zamanı onlarla etirazçıya atəş açılması əmrini vermiş biridir. Qanlı cinayətkar indi yüksək səs alacaqdı? Bu adamı Putinin səyi nəticəsində həbsxanadan xilas etdilər. Paşinyan yəqin ki, Koçaryanı yenidən məqam tapıb, həbsə atacaq və onun deputat mandatı da gedəcək işinə. Yaxud da, Sarkisyanın özü uğurlu bir siyasətçi idi ki? Ölkənin xəzinəsini talan etdi, milyonlarla vəsaiti oğurlayıb, Vatikanda, Avropada gizlətməyi bacardı. Koçaryanla birgə spikerin məhz parlament binasında nümayişkaranə şəkildə öldürülməsinə səbəb olan terror aktını təşkil etdi. Bunların vicdanına həddindən artıq kriminal hadisələr yazılıb”.





Beləliklə, regionda yaranan yeni şərait özündə əməkdaşlığı ehtiva edir və ən əsas məqam ondan ibarətdir ki, erməni xalqı müharibəyə “yox” dedi.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin “Düz yola gəlin” mesajına əməl etməyin vaxtıdır. Çünki Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə hələ çox belə böyük diplomatik uğurlara imza atacağının şahidi olacaqlar. Necə deyərlər “sonrakı peşimançılıq fayda verməz”. Yeni Paşinyan hökumətinin nicat çarəsi - Azərbaycan Prezidenti İlham Əliyevin təklifi olan sülh müqaviləsini imzalamaqdır.

**R.HÜSEYNOVA**

# "Şuşa Bəyannaməsi bütün Türk dünyasının zəfəridir"



Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə ilə torpaqlarını işğaldan azad etdi. Bununla da öz ərazi bütövlüyünü təmin edən ölkəmiz tarixi ədaləti bərpa etmiş oldu. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi, İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Bu gün isə ölkəmiz işğaldan azad edilmiş ərazilərdə böyük vüsətlə bərpa-quruculuq işlərini həyata keçirir. Təbii ki, bu işlərdə qardaş Türkiyənin rolu böyükdür. O cümlədən, Şuşa şəhərində qardaş Türkiyənin baş konsulluğunun açılmasına dair qəbul olunmuş qərar iki ölkə arasında diplomatik münasibətləri dərinləşdirməklə yanaşı həm də iqtisadi hədəfləri nəzərdə tutur. Belə ki, bu gün işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində də Azərbaycan ilə Türkiyə arasında sıx əməkdaşlıq mövcuddur və bu işlərdə Türkiyə aparıcı rollardan birinə sahibdir. Şuşada Türkiyənin baş konsulluğunun açılması da qardaş ölkənin bundan sonra da işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərində aparıcı rol oynayacağını deməyə əsas verir". Şuşada Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları Müttəfiqlik Bəyannaməsi ölkələrimiz və xalqlarımız arasında olan sarsılmaz dostluq və qardaşlıq əlaqələrinin daha bir nümayişi olmaqla, eyni zamanda da hər iki dövlətin Cənubi Qafqazda gedən proseslərdə rolu və nüfuzunun yüksəlişini şərtləndirən bir tarixi sənəddir: "Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin də öz çıxışında dediyi kimi, Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında strateji əhəmiyyət kəsb edən bütün əməkdaşlıq istiqamətlərini əhatə edir. O cümlədən beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti. Həmçinin Bəyannamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi xüsusi olaraq qeyd olunub. Bütün bunlar isə ölkələrimiz arasında keyfiyyətcə daha yüksək işbirliyinin etibarlı əsasını təmin edir. Öz növbəsində yeni, daha yüksək mərhələyə keçid alan əməkdaşlıq əlaqələri hər iki qardaş ölkənin Cənubi Qafqazda rolunun və nüfuzunun artmasına səbəb olacaq." Şuşada imzalanmış Müttəfiqlik Bəyannaməsinin ölkələrimizin imkanlarını birləşdirəcək və bütün Türk dünyasının maraqlarına cavab verən tarixi sənəd olduğunu vurğulayaraq bunları deyib: "Faktiki olaraq Şuşa Bəyannaməsi Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının strateji müttəfiqlik konsepsiyasına çevrilməsini təsdiq edən bir tarixi sənəd oldu. Artıq Türkiyə və Azərbaycan sadəcə dost və qardaş ölkələr deyil, həm də strateji müttəfiqlərdir. Bu müttəfiqliyin ən önəmli tərəfi də məhz hərbi sahədə əməkdaşlığın təmin edilməsidir. Belə ki, Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Möhtərəm dövlət başçımızın da öz çıxışında dediyi kimi, bu, tarixi nailiyyətdir. Artıq bütün dünya bilməlidir ki, Azərbaycan və Türkiyə bundan sonra da hər zaman bir yerdə olacaq, bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcək. Necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq. Şuşa Bəyannaməsi mahiyyət etibarı ilə gələcəyimizə, hər iki ölkənin stabil, inkişaf edən və təhlükəsiz gələcəyinin təmin olunmasına hesablanmış unikal tarixi sənəddir. Belə ki, Bəyannamədə silahlı qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır. Bu isə, birmənalı olaraq, bütün Türk dünyasının maraqlarına cavab verən və regional təhlükəsizliyin təmin olunmasını önə çıxaran çox vacib bir məqamdır."

***Fəxrəddin Vəliyev***
***YAP Şəmkir rayon təşkilatının sədri***

# YAP Masallı rayon təşkilatı "Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək" layihəsini davam etdirir

YAP Masallı rayon təşkilatı "Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək" layihəsi çərçivəsində rayonun Çaxırlı və Sarıcəfərli kəndlərindən olan II Qarabağ müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər. YAP Masallı rayon təşkilatının əməkdaşları və fəal üzvləri ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Kənan Şahbazov Natiq oğlu, Namiq Bağırov Nürəddin oğlu, Ağamalı Ağayev Şamil oğlu, Məmməd Vəliyev Nail oğlu və Ziya Gözəlov Zahid oğlunun məzarlarını ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzüblər. Ziyarət zamanı bildirilib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə hər zaman diqqət və qayğı göstərilir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Masallı rayonunda da şəhid və qazi ailələri mütəmadi olaraq ziyarət olunur, mövcud problemlərinin aradan qaldırılması üçün tədbirlər həyata keçirilir.





Qeyd olunub ki, 44 günlük müharibə Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və iradəsi ilə müzəffər ordumuzun gücünü, xalqımızın birliyini dünyaya göstərdi. Azərbaycanın igid əsgər və zabitləri Vətən müharibəsində elə bir şanlı tarix yazdılar ki, bu qəhrəmanlıq dastanı Azərbaycan var olduqca yaşayacaq, gələcək nəsillər tərəfindən öyrəniləcək və Şəhidlərimizin əbədiyaşar xatirələri daima yad olunacaqdır.

Şəhid ailələrinin üzvləri dövlət tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildiriblər. Eyni zamanda, şəhid ailələrinin gündəlik qayğıları dinlənildi, onlara ərzaq sovqatı və maddi yardım göstərilib. Allah Vətən torpaqlarının azadlığı və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün Şəhidlərimizə qəni-qəni rəhmət eləsin!

***R.HÜSEYNOVA***

# Sosial şəbəkələrdə pis vərdişlərdə meyillilik nədən qaynaqlanır?

"Aqressiyanın artması, insanların biri-birini həzm edə bilməməsi, yola getməməsi tək sosial şəbəkənin problemi deyil. Bunlar həm ailə daxili, həm ətraf mühitdə, həm iş həyatında, həm də dostluqda olur. Ailədə baş verən aqressiya bizimlə birlikdə işimizə də təsir edir. İşimizdəki əsəb-stress də evə yansıyır. Bunların hamısı bir-biri ilə sıx bağlıdır. Səbəb də çoxdur və fərddən-fərdə dəyişir. Kiminin şəxsi, kiminin iş, kiminin də sosial həyatı aqressiya yaradan səbəblərdən biridir. Bu bütün cəmiyyətin probleminə çevrilir. Pandemiyanın yaratdığı istər maddi, istərsə də mənəvi problemlər cəmiyyətin əsl aqressiya qaynağıdır. İşsiz qalan insanların hamısı bir-birinə mənfi təsir edir və aqressiya yaranır". Bu sözləri SİA-ya açıqlamasında Sağlam Cəmiyyət Hərəkatının sədri, sosioloq Lalə Mehralı deyib.

Onun sözlərinə görə, pis həyat vərdişi dedikdə insanların gözü önünə içmək, çəkmək, tüfeyli həyat tərzi keçirtmək gəlir: "Amma bu qavramaya çox şeyi aid etmək olar. İnsanın xidmət etdiyi amillər, ideyalar, inanclar və s. həyat fərdişinin formalaşmasının xırda-xırda hissələridir. Əgər, sosial şəbəkədən yaxşı insan deyə tanıdığımız biri vəhabiliyə qurşanıbsa və yaxud da hər hansı bir dini təriqətin əqidələrini müqəddəs hesab edirsə, bu hansısa təhlükənin xəbərçisidir. İnsanların sağlamlığı üzərindən oyunlar oynayan, sağlamlığa zərərli hər hansı məhsulun satışı ilə məşğul olanlar pis həyat fərdişinin formalaşmasının tərkib hissələridir".






Sosioloq sözlərinə belə davam edib: "Doğrudur, dost çevrəmizi biz özümüz seçirik. Real həyatda kimin daha yaxşı və pis olduğunu da tezliklə aydınlaşdıra bilərik. Amma virtual həyatda bunu öyrənmək, aydınlığa qovuşdurmaq çox çətindir. Çünki, virtualda insan çox maskalana və özünü gizlətmə bacarığına malik ola bilər. Biz klaviaturanın digər başında kimin oturduğundan məlumatsızıq. Bu baxımdan da bizi gözləyən təhlükənin böyüklüyü haqqında məlumatımız da az olur. Bu hallar xüsusilə yeniyetmə və gənclərdə baş verir. Bu səbəbdən də, mən həmişə yaxınlarıma deməyə çalışmışam ki, uşaqları sosial şəbəkələrdən uzaqlaşdırın. Çünki, onlar orada tez təsirə düşə bilərlər. Bu baxımdan pis həyat vərdişinə aludəçilik sosial çevrəsi məhdud, amma virtual çevrəsi geniş olan insanların daha çox başına gəlir. Belə insanları hər hansısa bir pis vərdişə, təriqətə, inanca öyrətmək çox asandır. Yəni, real sosial həyatı olmayan insanlar bir növ çiy insan adlanır. Onlar insan tanımırlar və aldatmaq çox asandır. Bütün bu səbəblərdən virtual həyatda hər özünü yaxşı tanıdan insanın yaxşılığına inanmaq sadəlövlükdür. Mütləq araşdırmaq lazımdır".

"Pis həyat vərdişini təbliğ edən insanların virtual müstəvidə aşkarlanması sadə insanlar tərəfindən çətin olsa da, hüquq-mühafizə oranlarının əlində su içimidir. Yəni, müəyyən açar sözlərlə kimin hansı işlə məşğul olduğu müəyyən edilə bilər. Məsələn, "narkotika" sözünü sosial şəbəkələrdə axtarışa versək, bizə bildiriş gəlir ki, bu söz sizin sağlamlığınız üçün zərərlidir. Yəni, sistemi elə qurublar ki, bu sözə qarşı həssaslıq yaranır və sistem avtomatik xəbərdarlıq göndərir. Məncə buraya bir çox sözləri də əlavə etmək lazımdır".

***Ayşən Vəli***

# Siyasi nankorluq, siyasi korluq...?

## AXCP və Müsavat rəhbərləri Şuşa Bəyannaməsinə niyə sevinmədilər

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar bəyanat bütün dünyanı sevinc apardığı qardaşlıq zirvəsi adlandırdılar. Və qardaşlıq və müttəfiqlik bəyannaməsi ilə bağlı ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar birgə bəyanat imzaladı.**

Həmin bəyanatda ölkədə gedən sosial-iqtisadi inkişafdan ictmai-siyasi sabitlikdən məmnunluq ifadə olunmaqla, xüsusilə vurğulanır ki, ölkədə fəaliyyət göstərən siyasi partiyalar Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini ölkələrimizin keyfiyyət baxımından yeni əlaqələrinin inkişafı və hər iki ölkənin gələcək birgə fəaliyyətinin vacib əsası hesab etməklə və bu yüksək strateji müttəfiqlikdə dövlətimizin yanındadırlar.Ancaq bu sevincdən qaşınmay düşən AXCP və Müsavat partiyasının "liderləri" ölkəmizin güclənməsinə, rifahını və təhlükəsizliyinə məyus oldular. Niyə?

Çünki bu satqın və ənənəvi xəyanət yolunu tutan AXCP sədri Əli Kərimli və Müsavat Partiyasının başqanı Arif Hacılı kimi siyasətbazlar antimilli fəaliyyətlərini bir daha biruzə vermiş oldular. Bu satqınların nə birinci, nə də sonuncu əməlləridir. Çünki bu antimilli qüvvələr tarixi Şuşa Bəyannaməsini- Azərbaycan dövlətinin düşmənləri üzərindəki növbəti qələbəsini həzm edə bilmirlər.Lakin KXCP sədri Mirmahmud Mirəlioğlu açıqlamalarında həm işğaldan azad olan ərazilərə səfərləri, həm də Şuşa Bəyannaməsi ilə bağlı siyasi partiyaların qəbul etdikləri bəyanatı yüksək qiymətləndirmişdir: "Həm AXCP sədri Əli Kərimli, həm də Müsavat başqanı Arif Hacılı həmişə dövlətin və xalqımızın uğurlarına qısqanclıqla yanaşdıqlarını gizlədə bilməyiblər. Çünki bu adamlar ümummilli maraqlar, ümummilli hisslərlə yaşayan insanlarlır və siyasi qüvvələr üçün bütün siyasi maraqlardan üstündür. Siyasi partiyaların son təşəbbüslərinə qoşulmaqdan imtina edən və 27-30 il işğal altında qalan torpaqları azad edildikdən sonra ziyarət etməkdən də imtina edən Əli Kərimli, Arif Hacılı kimiləri sübut etdilər ki, onlar Qarabağ mövzusunu yalnız şəxsi məqsədləri üçün istifadə ediblər və torpaqlarımızın azad edilməsi onlarda ciddi məyusluq hissi yaradıb".Bütün bunlar bir daha göstərir ki, anti-Azərbaycan dairələrin buyruq qulu olan AXCP sədri Ə.Kərimli və Müsavat Partiyasının başqanı A.Hacılı ölkəmizin milli mənafelərini öz şəxsi maraqları naminə hər an qurban verməyə hazırdırlar. Cəmiyyətimiz yaxşı bilir ki, Azərbaycan torpaqlarının işğal olunması, bir milyondan artıq insanın özünün doğma yurd-yuvalarından didərgin düşməsinə səbəb 90-cı illərin əvvəllərində hakimiyyətdə olmuş AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu dövrdə yeritdikləri xəyanətkar, yarıtmaz siyasət olmuşdur. Şuşanın işğalı o dövrdə hakimiyyət uğrunda gedən mübarizə nəticəsində baş vermişdir. Bu işğaldan sonra demək olar ki, növbəti işğallar da qaçılmaz oldu.



Göründüyü kimi, antiazərbaycan şəbəkənin missionerləri olan dağıdıcı düşərgədəkilərin, əli kərimlilərin, arif hacılıların iç üzü budur. Hələ bu harasıdır? Sular durulduqca çox şeylər üzə çıxacaq, çox mətləblərin üstünə gün işığı düşəcək. O zaman ictimaiyyət hər şeydən əli üzülən bu dağıdıcı düşərgənin başbilənlərinin çıxardığı oyunlardan daha yaxından xəbərdar olacaq.Bir sözlə, görünən odur ki, AXCP ilə Müsavat xaricdəki ermənipərəst dairələrin diktəsi ilə hərəkət edirlər. Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı və cəmiyyəti onların milli maraqlara zidd mövqeyini ikrah hissi ilə qarşılayır.

***Rəfiqə HÜSEYNOVA***



Elçin Bayramlı

# SOS: Milli genefonda terror!

**Abortlar faktiki olaraq qətl hadisəsidir, - bu, hələ doğulmamağa imkan tapmamış körpələrə qarşı fiziki terror, analara qarşı isə həm psixoloji, həm fizioloji terrordur. Abortlar bir cəmiyyəti xəstə vəziyyətə salır, demoqrafik vəziyyəti ağırlaşdırır, milli genefondu məhv edir, cinslərin təbii balansını pozur. Qısaca abort ən qorxunc və ən dəhşətli bəladır.**

Həm rəsmi, həm qeyri-rəsmi statistika göstərir ki, Azərbaycanda abortların sayının artması son dərəcədə acınacaqlı haldadır. Xüsusən də, selektiv abortlar daha təhlükəlidir. Bu, qız uşaqlarını abort etdirən valideynlər nə fikirdədir? Gələcəkdə oğlanlarını bir-biri ilə evləndirmək fikrindədirlər?

Son 20-30 ildə bu sahədə vəziyyət daha da pisləşib. Bəzi bu işlə məşğul olan həkimlər etiraf edirlər ki, son vaxtlar məktəbli qızların müraciətləri daha çox kütləviləşib. Bunların çoxu rəsmiləşmir və statistikaya daxil olmur. Buna görə də, hesab edilir ki, real rəqəmlər rəsmi statistikadan 10 dəfə daha çoxdur. Bu, faktiki qətl hadisəsi olmaqdan əlavə, həm mənəvi, əxlaqi, psixoloji cəhətdən deqradasiyanın son həddidir, həm də milli genefondumuzun, ailə institutumuzun tam dağılmasına az qalıb deməkdir.

Abort məlum olduğu konkret qətl hadisəsidir. Ana bətnindəki uşağı öldürməklə, küçədəki hər hansı bir şəxsi öldürmək arasında heç bir fərq yoxdur. Maraqlıdır ki, qanunlar hər hansı bir qətlə ağır cəzalar verdiyi halda, körpələrin göz qabağında açıq şəkildə qətli həyata keçirildikdə buna nə qanun, nə də bir başqası reaksiya verir. Açıq şəkildə ölkədə hər gün minlərlə qətl törədilir. Faktiki olaraq, milli genefonda qarşı kütləvi terror törədilir. Buna da demək olar ki, tam bir şərait yaradılıb və kim nə qədər istəsə, o qədər adam öldürə bilər.

Bunun qarşısını almaq üçün nə dövlət, nə də cəmiyyət heç bir tədbir görmür. El arasında arvad-uşaq komitəsi adlandırılan orqan dövlətin pullarını boş yerə xərcləməklə məşğuldur və bu sahədə heç bir effektiv iş görmür, hansısa təbirlər həyata keçirmir, nəzarət etmir. Bu komitə ləğv olunmalıdır və xüsusi bir dövlət orqanı yaradılmalıdır. Bəzi ölkələrdə abortların edilməsinə qarşı daha mühafizəkar qanunlar var. Hətta bəzi Avropa ölkələrində belə, abort etmək qadağandır və abort edən şəxs sərt cəzalandırılır. Bizdə demək olar ki, bu məsələ ilə bağlı nə dövlət maraqlanır, bu məsələ nə cəmiyyətin, nə də mətbuatın vecinədir.

Abortlar geniş planda baxıldıqda milli təhlükəsizlik məsələsidir. Bu milli fəlakətdən xilas olmaq üçün təcili şəkildə dövlət bu məsələ ilə bağlı ya xüsusi proqram qəbul etməlidir, ya da bu sahə üzrə geniş səlahiyyətlərə malik xüsusi dövlət orqanı yaradılmalıdır. Bu sahəyə çox ciddi nəzarət olunmalıdır və çox sərt cəzalar qoyulmalıdır. Artıq çox gec olsa da, hələ ki, xilas imkanları qalır. Ruslar demiş, luçşe pozdno, çem nekoqda...

# Fransa hökumətinin erməni "canıyananlığı"...

**Erməni etirafına görə, son zamanlar bədbəxtçilik nəinki təkcə Ermənistanı, həm də Ermənistandakı ermənilərin "ümid yeri" kimi baxdıqları xaricdəki erməni diasporlarını da çuğlayıb. Elə bil bütün dünya bu "cəfakeş" ermənilərdən üz döndərib. Erməni məntiqinə görə, belə olmamalıdır. Budur, Fransada yenicə yaradılmış "Fransız ermənilərı şurası" hələ ki, yerində sayır. Yəni bu günə kimi, çöpü çöp üstünə də qoymayıb.**

Məlumdur ki, son illər xaricdəki erməni diasporlarının uğursuz fəaliyyəti "mədəni erməni cazibəsini" tədricən itirməyə, diasporda ana dili biliklərini zəifləməyə, Qərbi və Şərqi erməni dilləri arasındakı rəqabətin artmasına, Fransa ilə Ermənistan arasında qənaətbəxş olmayan iqtisadi mübadilə və həta "ermənilərin qədim dədə-baba torpaqlarındakı" suverenlik haqqını da itirmə riskini artırıb. Məsələ bundadır ki, bütün bu məsələlərin həlli ilə məşğul olmaq istəyən Fransadakı erməni diaspor fəallarının əsas fəliyyətləri xaricdəki erməniləri gücləndirməyə hesablanıb. Bunun üçün onlar strateji proqram da hazırlayacaqlar. Təbii ki, bu işdə Fransa hökuməti də ermənilərə yardımçı olacaq. Qeyd edək ki, bunları ermənilər deyirlər.

...Yeri gəlmişkən, bu gün mən burada farnsızların "nəvaziş göstərib qoyunlarına aldıqları" ermənilərin hansı xislət sahibi olduqları barədə nə farnsız yazıçısı Aleksandr Dümadan, nə də farnsız səyyahı Qraf De Şoledən nümunələr gətirəcəyəm.




...Xatırlamış olarsınız, prezidentliyi dövründə ilk dəfə İrəvana gələn Fransa prezidenti, yəqin ki, anasının erməni köşənli olmasına eyham vuraraq, ermənilərin fransızlarla eyni kökdən olduğunu bildirmişdi. Təbii ki, o vaxt yanlarında olmamışıq deyə, müdaxilə edə bilmək səlahiyyətində də deyilik. Amma burada mən yerinə düşmüşkən deyə, Makrona və eyni zamanda, onun müsəlman qadınlarını "xoxana" oxşadıb, əslində isə, özü xoxandan fərqlənməyən həyat yoldaşı seçiminə eyham olaraq "yazıq fransız xalqı" demək istəyirəm.

...Təbii ki, Makron, elə onun zövcəsi də, hazırda Ermənistanda yalnız faşistlərə deyil, həm də terrorçulara qəhrəman kimi hörmət edildiyini bilməmiş olmaz.

Burada fransızların balaca bacı çağırdıqları ermənilər barədə bir faktı xatırlatmaq istəyirəm. O vaxt Fransanın Orli hava limanında 8 nəfərin ölümü və 55 nəfərin yaralanması ilə başa çatan terror aktını törətmiş erməni Varujan Qarbidjianı Fransa hökuməti "humanistlik göstərərək" Ermənistana "sürgün" etdi. Yadınızda olar, həmin dövrdə ermənilərin baş naziri onu şəxsən özü hava limanında qarşılayaraq təriflədi. O, hətta Qarbidjianı terrorçuların liderlərindən biri saymaqdan da çəkinmədi. Gərək ki, sonradan ona "Ermənistan qəhrəmanı" adı da verildi... günahsız insanları öldürdüyünə görə...

Gərək ki, həmin ərəfədə, fransız qardaşlara ayağısürüşkən erməni bacılarından bir mesaj da ünvanlanmışdı. Belə ki, ermənilərin ASALA-sı hədə-qorxu gələrək "...əgər Fransa erməni xalqına münasibətdə terrorizm siyasətini davam etdirərsə", bütün dünyadakı Fransa təşkilatlarına ermənilər tərəfindən hücum ediləcəkdir.

Al, bu da sənə "məhrəm" bacı-qardaşlıq...

Bu günlərdə fransalı tarixçi Maksim Qauinin bir aşıqlaması ilə rastlaşdım. Tarixçinin fikrincə, Ermənistanın hakim partiyası heç vaxt öz ideologiyasını gizlətməyib. Belə ki, Ermənistandkı hakim partiyanın ideologiyası həmişə Qaregin Nijdenin qeydlərinə və fəaliyyətinə əsaslanıb. Yəni bu günkü erməni ideologiyası vaxtilə Almaniya və İtaliyada mövcud olan irqçi ideologiya elementlərinin varlığıdır.

...Mənə elə gəlir ki, Fransada yaşayan ermənilər hələ ki, özlərində elə bir "güç" tapmayıblar. Əgər, tapsaydılar, təbii ki, çoxdan sahib olduqları irqçi ideologiyadan fransız qardaşlarına da bir pay ayırardılar...

***Ağasəf Babayev***

# Füzuli - Azərbaycanda yarım ilə aeroport inşa etmək!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Qarabağın işğaldan azad olunmasından sonra 30 ilə yaxın müddətdə dağıdılmış və məhv edilmiş şəhər və kəndlərin infrastrukturlarının yenidən qurulması, tikinti, bərpa və yeni inşaat proseslərinə startın verilməsi, eləcə də işlərin sürətlə aparılması xarici jurnalist və blogerləri sözün əsl mənasında heyrətləndirir. Təbii ki, uzun illər boyunca torpaqlarımızı talan edən, daşı-daş üstündə qoymayan işğalçıların bu əməlləri də yerdə qalmayacaq və söz yox ki, Ermənistan hər necə olursa-olsun, törətdiyi bu cinayətlərinə görə nəhəng miqdarda təzminatlar ödəməli olacaq. Lakin fakt budur ki, hətta həmin təzminatların ödənilməsini gözləmədən Azərbaycan artıq dinamik fəaliyyətə keçib, azad edilmiş ərazilərimizdə digər layihələrin həyata keçirilməsi ilə yanaşı, həm də hava limanları inşa olunmaqdadır.**



SİA xəbər verir ki, Ukraynanın paytaxı Kiyevdən olan tanınmış fotobloger Aleksandr Çeban Azərbaycandan hazırladığı fotosessiyaları, eləcə də fikirləri ilə reportajlarını davam etdirir. Bu dəfə onun səfərinin mühüm məqsədi Füzulidə qısa müddətdə inşa edilən hava limanının tikintinisini işıqlandırmaqdan ibarətdir.

**"Dağıdılmış binaların qalıqları arasından keçərkən mütəmadi olaraq həyati əhəmiyyətli müasir infrastrukturları görürsən - elektrik stansiyaları, tikinti zavodları, amma ki, bütün bunlar yalnız 6-8 ay ərzində tikilib!!!"**





"İnşaat işləri yanvar ayında başlanılıb, aeroportun birinci reysi isə artıq sentyabrda olacaq!" deyə heyrətini gizlədə bilməyən ukraynalı bloger onu da xatırladıb ki, Qarabağın azad edilmiş əraziləri indi ümumiyyətlə həyat olmayan yer kimidir, lakin buradakı inkişaf planı möhtəşəmdir.

SİTAT: "Dağıdılmış binaların qalıqları arasından keçərkən mütəmadi olaraq həyati əhəmiyyətli müasir infrastrukturları görürsən - elektrik stansiyaları, tikinti zavodları, amma ki, bütün bunlar yalnız 6-8 ay ərzində tikilib!!!", Çeban növbəti dəfə heyrətini gizlədə bilmir. O, çəkdiyi hər fotoda Füzuli şəhərinin və ətraf ərazilərinin qısamüddətli inkişaf reallıqlarını təqdim edir və əsasən, onu heyran edən məhz aeroportdur - dünyanın ən müasir standartlarına cavab verəcək möhtəşəm, əsrarəngiz hava limanı!

## Yarım ilə yeni aeroport?

Bu sualla reportajını davam etdirən ukraynalı bloger artıq inamla, əminliklə vurğulayır ki, bunu yalnız Azərbaycanda etmək mümkündür!

O, xatırladır ki, fəaliyyəti dövründə aeroport kompleksini və onun inşası prosesini ilk dəfə müşahidə etmir və burada (Füzulidə) reallaşdırılan tikinti tempi heyqiqətən də təəccübləndirir!

"Praktiki olaraq uçuş-eniş xətti hazırdır, eləcə də terminalın fundamenti tamamilə qoyulub, artıq karkasın yerləşdirilməsinə başlanılıb, həmçinin dispetçer qülləsi də tikilməkdədir", reportajında yazan bloger hava limanının göstərəcəyi funksiyası barədə də söhbət açıb. SİTAT: "Bu aeroport Qarabağ ərazisində ilk əhəmiyyətli infrastruktur obyekti olacaq, onun inşası prioriteti ən yüksəkdir, ona görə də sentyabr ayında birinci reysin həyata keçiriləcəyi ilə bağlı məndə şübhə yoxdur. Söz yox ki, hələ indi müəyyən skepsis mövcuddur və aeroportla bağlı sərnişin axını, eləcə də coğrafiya ilə münasibətdə suallar yaranır. Real proqnozlara görə, Füzuli hava limanından mütəmadi reyslər və tələb olunan marşrutlar yaxın üç-beş ilə yaranacaq və 100-150 km radiusdakı yaşayış məntəqələrini əhatə edəcək. Regionun turistik potensialı - ən tezi onilliklər üfüqündədir".

**Uçuş-eniş xəttinin uzunluğu 3000 metr, eni isə 60 metri əhatə edir, eyni zamanda, 60 min kvadratmetr sahədə perronun tikintisi davam etdirilir**

Aleksandr reportajı əsnasında digər işğaldan azad eidlmiş bölgələrimizdə də olduğunu xatırladıb və buna misal kimi Ağdamı göstərib. "Mən regionun mərkəzinə çevriləcək və hazırda "sıfırdan" tikilməkdə olan Ağdam şəhərində oldum və çox maraqlı, müasir layihə ilə bağlı növbəti reportajımda bəhs edəcəyəm", deyə o bildirib.



Bunun ardınca ukraynalı bloger Füzuli aeroportunun asfalt-beton uçuş-eniş xəttinin davam etdirildiyini bildirib və qeyd edib ki, bu xətt geniş füzelyajlı hava gəmilərini qəbul etməyə imkan yaradır. Uçuş-eniş xəttinin uzunluğu 3000 metr, eni isə 60 metri əhatə edir, eyni zamanda, 60 min kvadratmetr sahədə perronun tikintisi davam etdirilir.

SİTAT: "Terminal binasının betonlama işləri başa çatdırılıb. Metal konstruksiyaların quraşdırılması üzərində işlər isə davam etdirilir. Terminalın dam örtüyünün bağlanması üçün istifadə edilən materiallar İtaliyadan gətirilib. Eyni zamanda, terminalın fasad hissəsinin bitirilməsi üçün Türkiyəyə material sifarişi verilib.

İnfrastrukturun hazırlanması işlərinin başa çatdırılması hava gəmilərinin uçuşlarını yerinə yetirmək istiqamətində vacib olan aeroidarəolunma və işıq texnikalarının təminatı, həmçinin avadanlıqların quraşdırılması üçün işlər sona yetib. Buna misal kimi meteoradar baza kompleksinin quraşdırılmasını göstərmək olar".

## Hava limanının ərazisində qazanxananın və s. yardımçı binaların və qurğuların inşası yönündə işlər davam etdirilir

Ukraynalı bloger əsas 10 KVT-lıq transformator yardımçı stansiyasının inşası işinin də başa çatdırıldığını bildirib və qeyd edib ki, orada təchiz edilmiş elektrik xətləri aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edəcək. O cümlədən, hava limanının ərazisində qazanxananın və s. yardımçı binaların və qurğuların inşası yönündə işlər davam etdirilir.



Aleksandr Çeban ərazidə artezian quyularının qazılması işlərinin, həm də davamlı su təchizatının təminatı üçün su rezervuarlarının tikintisi işlərinin də yekunlaşdığını deyib. Onun sözlərinə görə, prosesin optimallaşdırılması üçün Fizuli aeroportu yaxınlığında asfalt və beton zavodları tikilib.

## Aeroidarəetmə avadanlıqlarının eləcə də qülləsinin tikinti işləri başa çatdırılıb

"Füzuli, Zəngilan və Laçın aeroportlarına ediləcək beynəlxalq uçuşların təminatı üçün beynəlxalq standartara cavab veriləcək hava trasları da tikilir", deyən bloger nəticə olaraq qeyd edib ki, 2021-ci ilin 5 sentyabr tarixinə ilk reysin həyata keçirilməsi planlaşdırılır. Bu tarixdə uçuş-eniş xətti istifadəyə veriləcək və orada aeroidarəetmə avadanlıqlarının eləcə də qülləsinin tikinti işləri başa çatdırılıb.

"Bu tarixdə aerovağzal kompleksinin inşası da hissə-hissə sona çatdırılacaq, daha dəqiq desək, terminalın VİP seksiyası işə düşəcək. İlin sonuna isə Füzulinin beynəlxalq aeroportunun terminalının sərnişindaşıma və infrastruktur təminatı istiqamətində aparılan işlər yekunlaşdırılacaq", deyən Aleksandr Çeban Qarabağ ərazisində davam etdirilən tikinti-quruculuq və sürətli inşaat prosesləri barədə növbəti yazılarında da çıxış edəcəyini bildirib.

QEYD: Yazının rus dilində dərc edilmiş orijinalını aşağıdakı linkdən oxuya bilərsiniz:

https://alexcheban.livejournal.com/350328.html

**Rövşən RƏSULOV**

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

25 iyun

QARABAĞ AZƏRBAYCANDIR!

# UEFA səfər qolu qaydasını ləğv etdi!



Avropanın ali futbol qurumu olan UEFA 2021/2022 mövsümündən Avropa yarışlarında səfər qolu qaydasını ləğv edib. Bu barədə qurumun saytı məlumat yayıb. Yeni qərara əsasən, iki oyunun nəticəsinə əsasən, hesab bərabər olarsa, hərəsi 15 dəqiqədən ibarət iki əlavə hissə oynanılacaq. Burada da qalib müəyyənləşməsə, penaltilər seriyası işə salınacaq.

Qeyd edək ki, səfər qolu qaydası Çempionlar Liqasında, Avropa Liqasında və Avropa çempionatının pley-off mərhələsində tətbiq olunurdu. Bu qaydaya görə, iki matçın nəticəsindən sonra bərabərlik olması halında, səfərdə daha çox qol vuran komanda növbəti mərhələyə yüksəlirdi.

# "Palatka", yoxsa restoran toyu?

**İl yarımdan çoxdur ki, toylar keçirilmir. Bunun müxtəlif fəsadları artıq görülməkdədir. Birincisi psixoloji-mənəvi, ikincisi demokrafi, üçüncüsü iqtisadi-sosial, dördüncüsü ümumiyyətlə, cəmiyyətdə olan psixoz vəziyyəti yaratmasına görə, toylara olan qadağaların vaxtında götürülməsi vacib idi. Bu sözləri SİA-ya açıqlamasında analitik-ekspert, yazıçı-kulturoloq Aydınxan Əbilov deyib.**

Onun sözlərinə görə, toyların formatlarına görə, müxtəlif fikir mübadiləsi olur: "Artıq 500, 1000 nəfərlik toylar yox, çox az sayda 50-150 nəfərlik toyların keçirilməsi təklif olunur. Sözsüz ki, açıq səmada və mağar toylarının tərəfdarıyam. Çünki mağar toylarında ən azı təbii havalandırma var. İnsanların sosial məsafəni gözləməsi şərti ilə eyni zamanda bir masa ətrafında beş, ən çox on nəfərin oturması, onlara xidmət edən personalın tibbi ləvazimatlardan istifadə etməsi, xüsusi formalarda xidmət göstərmələri daha arzulunandır. Açıq səmada keçmişdə də toylar olub. Heç əvvəllər çadır da yox idi. Sadəcə açıq səma altında şənliklər toylar keçirilib. Amma yayı və istiliyi nəzərə alıb qapalı məkanlarda toy etmək istəyən şəxslər müəyyən şəraitlər yaratmaq şərti ilə və bir neçə zaldan istifadə etmək şərti ilə restoran və şadlıq evlərində də toyların keçirilməsi təklifinə baxmaq olar".



Aydınxan Əbilov həmçinin qeyd edib ki, mütəxəssislərin, tibb ictimaiyyətinin və Operativ Qərargahın şərtlərinə və göstərişlərinə xüsusilə riayət olunmalıdır: "Onlar necə təklif edirlərsə, ona uyğun da toyları təşkil etmək vacibdir. Toylar yalnız iki nəslin birləşməsi və insanların, o cümlədən də gənclərin ailə qurması demək deyil. Toylar həm də ictimai, mədəni, dövlət və cəmiyyət əhəmiyyətli bir hadisədir. Bunu sadəcə, şənlik məclisi kimi yox, həm də cəmiyyətin iqtisadi təməlini möhkəmləndirən, dövləti iqtisadi cəhətdən dirçəldən, yeni iş yerlərinin yaradılması, kreativ biznesin inkişafı baxımından da biz gözdən keçirtməliyik. Əlbəttə şadlıq evləri və restoranların çoxu indi fəaliyyət göstərmir. Toylar başlayan kimi onlar fəaliyyətə başlayacaqlar. Mağar, çadır toylarının keçirilməsi kreativ biznesin yeni növlərinin və istiqamətlərinin inkişafına təkan vermiş olar. Yeni iş yerlərinin yaradılması, eyni zamanda köhnənin yenidən dirçəlməsi baxımından da maraqlı olar. Ümumiyyətlə, istənilən halda hansı formada keçirilməsindən asılı olmayaraq, Operativ Qərargahın bütün göstərişlərinə riayət edilməlidir".

*Arzu Qurbanzadə*

# Bu gün 40 dərəcə isti olacaq

İyunun 25-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq



küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 22-26, gündüz 34-39, bəzi yerlərdə 41, Bakıda gecə 24-26, gündüz 37-39 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 35-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 25-26, Türkan, Hövsan, Sahil, Şıxda 26-27 dərəcə isti olacaq. İyunun 25-də Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi dağlıq ərazilərdə duman olacaq, şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 35-40, bəzi yerlərdə 43, dağlarda gecə 15-20, gündüz 28-33 dərəcə isti olacaq. Həftə ərzində Bakıda və Abşeron yarımadasında anomal isti, günün bəzi saatlarında durğun hava şəraiti, zəif küləklərin üstünlüyü, gündüz güclü temperatur diskomfortu gözlənilir ki, bu da əksər əhali üçün əlverişsizdir.

# Ölümə aparan içkilər hansılardır?

"Ümumiyyətlə, enerji içkilərinin hər zaman fəsadlarını söyləyirik. Bu içkilərin ən böyük fəsadı xüsusilə, gənclərin sağlamlığı üçün çox böyük risk yaratmasıdır. Baxmayaraq ki, enerji içkilərinin ziyanlı olduğunu təbliğ edirlər, bunun satışı və gənclər tərəfindən istehlakı getdikcə artır. Üstəlik, tərkibində müxtəlif bioloji aktiv maddələr var: kofein, jenşen, amin turşusu və s.". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib".



Onun sözlərinə görə,insanlar bu içkiləri spirtli və spirtsiz formada da qəbul edirlər: "Enerji içkilərində vitaminlərin olmasını göstərmələri gəncləri daha çox aldadır. Çünki, tam məlumatlı olmayan bir gənc bu vitaminlərin onun orqanizminə enerji verəcəyini düşünür. Halbuki, bunlar tamamilə süni, kimyəvi qatqı maddələrindən ibarət və tərkibində həddindən artıq kofein və şəkərin olması orqanizmə nəinki enerji içkisi, eyni zamanda enerji bombası kimi təsir edir. Hər orqanizmin günlük enerji sərfiyyatı var ki, bu içkiləri içdikdə o günlük enerjini az bir müddətdə aktivləşdirir və dərhal sonra aşağı salır. Ona görə də bu orqanizm üçün birbaşa riskdir. Ən təhlükəli hallarından biri də kofeinlə spirti birlikdə qəbul etmələridir ki, gənc nəsil arasında ən çox 18 - 29 yaş arası gənclərin 70 faizi enerji içkilərini spirtlə qarışdırıb içir. Bu da daha çox təhlükəli haldır. Enerji içkilərindən zəhərlənmələr, bəzi halda ölümlə nəticələnən hallar məhz spirtlə qarışdırıldıqda ən çox rast gəlinəndir".

M.Hüseynova sözlərinə belə davam edib: "Ümumilikdə kofeinli enerji içkilərini həddindən artıq içdikdə zəhərlənmə də baş verir ki, bu da birbaşa ürək-damar sisteminə təsir edir edir. Eyni zamanda, bu, özünü ürəkbulanma, qusma, qan təzyiqinin artması kimi də göstərir. Həmçinin, mütəmadi olaraq enerji içkiləri qəbul edən insanlar daha çox aqressiv, daha çox depressiyaya meylli olurlar və ən çox risk daşıyan qruplar isə uşaq və yeniyetmələr, daha çox isə tələbələrdir. Ən təhlükəli hallardan biri isə sürücülərin, nəzarətçilərin, bəzən də idmançıların bunu qəbul etməsidir ki, orqanizmə birbaşa həm qazlı, həm rəngli, həm süni maddələrlə zəngin, eyni zamanda da yüksək şəkərli içkini içməklə çox böyük zərər vururlar. Enerji içkilərinin bir çox ölkələrdə qadağan olunmasına baxmayaraq yenə də əlçatandır. Yaxşı olardı ki, bununla bağlı maarifl ənmə işləri daha çox aparılsın və ən azından zərərlərini düzgün şəkildə çatdırsaq düşünürəm ki, bundan imtina etmək də o zaman daha rahat olacaq. Çünki enerji içkilərini parlaq rəngli bankalarda hazırlamaqlarına baxmayaraq, bir çox tanınmış simaları, xüsusilə idmançıları bunun reklamına cəlb edilirlər ki, bu da ən xoşagəlməz hallardan biridir. Məhz cavan, gənc orqanizm və idmana meylli insanlar həmin simaların təsirindən bu içkiləri istifadə edib onun kimi idmançı və uğurlu olacağını düşünür. Ən böyük yanlışlardan biri də budur və istəyərdim ki, bu halların qarşısı alınsın".

*Ayşən Vəli*

## ELAN

Bakı şəhəri Abşeron rayonu Masazır qəsəbəsində Bağçalı Evlər MTK tərəfindən Mahmudov Samir Şahnəzər oğlunun adına verilmiş 6/46 saylı mənzilin maliyyə arayışı və muqaviləsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600